RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 97 (8413) ÇƏRŞƏNBƏ AXŞAMI, 19 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Əsl liderlik missiyası

## Prezident İlham Əliyevin qlobal təşəbbüsləri bu gün dünya liderləri, aparıcı biznes və maliyyə institutları tərəfindən təqdir edilir

Bu gün Azərbaycan sözün həqiqi mənasında tam müstəqil, özünü təmin edən, milli köklərə əsaslanan, eyni zamanda, dünyəvi, uğurla inkişaf edən, yalnız öz gücünə arxalanan, dünya birliyinin etibarlı və layiqli üzvü olan dövlətdir. Son 17 illik sürətli inkişafın təzahürü isə buna əyani misaldır. Bu uğurları şərtləndirən əlbəttə ki, ölkəyə rəhbərlik edən cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşan və bu gün də davam etdirilən sosial-iqtisadi layihələr, mütərəqqi islahatlardır.

Azərbaycan Prezidentinin Cənubi Qafqaz regionunda həyata keçirdiyi və birbaşa iştirakçısı olduğu beynəlxalq layihələr ölkəmizə həm siyasi, həm də iqtisadi dividendlər qazandırır. Bütün bunlar isə təkcə ölkə ictimaiyyəti deyil, həm də dünyanın aparıcı sosial-iqtisadi mərkəzləri tərəfindən hər zaman yüksək qiymətləndirilir.

### Qlobal təşəbbüsləri və müstəqil xarici siyasəti ilə nüfuzu daim yüksələn lider

Güclü siyasi liderin fəaliyyətinin təsir dairəsi bir ölkə ilə məhdudlaşmır, bütövlükdə regional, hətta qlobal əhəmiyyət daşıya bilir. Bu baxımdan, bu gün cənab İlham Əliyevin həyata keçirdiyi tam müstəqil xarici siyasət həm regionda, həm də dünya miqyasında gedən siyasi-iqtisadi proseslərin axarına həlledici təsir göstərir. Elə bütün bunların səbəbidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə fəal aktorlardan birinə çevrilib. Ölkəmiz Avropa ilə Asiya qitələrini siyasi, iqtisadi, mədəni nöqteyi-nəzərdən birləşdirən regional güc mərkəzidir.

Cənab İlham Əliyevin qlobal təşəbbüslərinin nailiyyətləri bu gün beynəlxalq miqyasda təqdir edilir. Bunu böyük dövlətlərin başçıları qeyd edir, xarici mətbuat və nüfuzlu beynəlxalq qurumların rəhbərləri bildirirlər. Dünya Bankı ölkəmizin liderini ən islahatçı Prezident adlandırır. Bu da bir daha sübut edir ki, cənab İlham Əliyev beynəlxalq miqyasda böyük nüfuza malikdir.

Məhz bəşəriyyətin ağır qlobal böhranla üzləşdiyi bir zamanda Azərbaycan Prezidentinin təşəbbüslərinin dünyanın tanınmış ictimai-siyasi xadimləri, diplomatları tərəfindən yüksək qiymətləndirilməsi, eləcə də, başqalarına nümunə kimi göstərilməsi hər bir azərbaycanlıda qürur hissi doğurur.

Son bir neçə ayda Azərbaycan Prezidentinin təşəbbüsü ilə reallaşan tədbirlər, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü, Qoşulmama Hərəkatının tarixində ilk dəfə təşkil olunan videokonfrans, həmçinin ABŞ Prezident Donald Tramp və Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesus tərəfindən cənab İlham Əliyevə ünvanlanan məktublar və digər faktlar Azərbaycan Prezidentinin dünya miqyasında nüfuzunun daim artdığının birbaşa göstəricisidir.

### Hər sahədə müasir texnologiyaların tətbiqi

Son iki həftədə Azərbaycan Prezidenti ilə Avropa Yenidənqurma və İnkişaf Bankı və beynəlxalq CISCO şirkətinin rəhbərliyi arasında keçirilən videokonfranslarda səslənən fikirlər də deyilənlərin real təsdiqidir.

Bu görüşlərdə Azərbaycan Prezidentinin qlobal pandemiya ilə mübarizədə həyata keçirdiyi qabaqlayıcı tədbirlərin effektiv nəticələri, ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatına və 10-dan artıq dövlətə göstərdiyi yardımlar çox yüksək dəyərləndirildi.

CISCO şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer bildirdi ki, Prezident İlham Əliyev COVID-19 virusu ilə əlaqədar Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının toplantısında və Qoşulmama Hərəkatının görüşünün təşkil edilməsində liderlik səylərini nümayiş etdirib. Bu, onlara çox böyük təəssürat bağışlayıb.

Konfransda dövlət başçısı Azərbaycanın CISCO şirkətinin "Smart ölkə" layihəsini dəstəklədiyini vurğulayaraq qeyd etdi ki, qarşıya qoyulan məqsəd hər sahədə müasir texnologiyaların tətbiqi ilə uğurlu inkişafdır.

Xanım Kelli Kramer üçün Azərbaycan Prezidenti kimi liderin texnologiyaya belə açıq olması və onun ölkə üzrə tətbiqinə hazır olması məmnunedici haldır. Çünki cənab İlham Əliyev təkcə regionda deyil, dünya çapında texnologiyaya dəstək verən liderlərdəndir.

Ardı 3-cü səh.

## Prezidentlər ikitərəfli münasibətlərin inkişafından məmnundurlar



Mayın 18-də Moldova tərəfinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Moldova Respublikasının Prezidenti İqor Dodon arasında videokonfrans formatında görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, Moldova **Prezidenti İqor DODON** dövlətimizin başçısı İlham Əliyevi salamlayaraq dedi:

- Sabahınız xeyir.

**Prezident İlham ƏLİYEV:**

- Sabahınız xeyir.

**Prezident İqor DODON:**

- Hörmətli cənab Prezident, hörmətli dostumuz. Sizinlə heç olmasa belə rejimdə ünsiyyət qurmaq imkanına görə çox şadam. Əvvələn, Sizi ötən böyük bayram - Qələbə Günü münasibətilə təbrik etmək istərdim. Həmçinin pandemiyaya qarşı mübarizədə bizə kömək göstərmək barədə qəbul etdiyiniz qərara görə təşəkkürümü bildirmək istərdim. Bir neçə gün bundan əvvəl, ötən həftə biz xüsusi təyyarə ilə Sizin göndərdiyiniz yardımı qəbul etdik. Bütün xalqımız adından Sizə təşəkkürümü bildirirəm ki, Bakıdan olan qardaşlarımız bu ağır vəziyyətdə bizə kömək etmək qərarına gəliblər. Bilirəm ki, Sizin ölkədə də pandemiya ilə mübarizə aparılır. Onu da bilirik ki, Siz bunun öhdəsindən layiqincə gəlirsiniz. Ümidvaram ki, əməkdaşlığımızın bu və digər bəndləri barədə bu gün biz telekonfrans rejimində söhbət açacağıq.

**Prezident İlham ƏLİYEV:**

- Bəli. Sizi görməyimə çox şadam, hörmətli cənab Prezident. Mən də Sizi və Sizin şəxsinizdə bütün Moldova xalqını ötən Qələbə bayramı münasibətilə təbrik etmək istərdim. Bizim ölkələrimizdə bu bayram həmişə çox əziz tutulur. Bizim Qələbəmiz uğrunda canlarından keçənlərin xatirəsini əziz tutmağımız fərəhlidir. Hazırda sağ olanlar, - düzdür, onların sayı getdikcə azalır, - ölkələrimizdə böyük hörmətə sahibdirlər. Əlbəttə ki, biz ikitərəfli planda daim aktiv qarşılıqlı fəaliyyətə istiqamətlənmişik. Mən sizinlə həm Bakıda, həm də beynəlxalq məkanlarda görüşlərimizi xatırlayıram. Buna görə də Azərbaycanın bu çətin gündə Moldovaya həmrəylik göstərməsi təbiidir. Çünki məhz çətin vaxtda bir-birinə dəstək göstərilməlidir. Hamıda hər şey yaxşı olanda hamı bir-birini təbrik edir və uğurlarına sevinir. Lakin ağır dəqiqədə, əlbəttə ki, imkan daxilində biz bir-birimizi dəstəkləməliyik. Mən Sizin bununla bağlı məktubunuza və həmçinin bu gün bunu qeyd etdiyinizə görə təşəkkür edirəm. Əlbəttə ki, pandemiya bütün ölkələrdə hadisələrin gedişatına, o cümlədən beynəlxalq siyasət məsələlərinə öz təsirini göstərib. Lakin müasir texnologiyalar fəal işləməyə və hətta bu rejimdə ünsiyyət qurmağa imkan verir. Beləliklə, əminəm ki, bugünkü müzakirəmiz də çox faydalı olacaq və nəticəyə istiqamətlənəcək.

* * *

Söhbət zamanı dövlət başçıları koronavirus pandemiyası ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi apardılar, pandemiyanın sosial-iqtisadi fəsadlarının aradan qaldırılması istiqamətində gələcəkdə görüləcək işlərdən danışdılar.

Prezident İlham Əliyev və Prezident İqor Dodon ikitərəfli münasibətlərimizin inkişafından məmnunluq ifadə edərək siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdilər.

Söhbət zamanı dövlət başçıları pandemiya başa çatdıqdan sonrakı dövrdə ölkələrimiz arasındakı əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi məsələlərinə toxunaraq bildirdilər ki, ticarət, iqtisadiyyat, nəqliyyat, energetika və digər sahələrdə əlaqələrimizin genişləndirilməsi, eləcə də investisiya layihələrinin həyata keçirilməsi üçün əlverişli imkanlar var. Prezidentlər bu baxımdan postpandemiya dövründə hökumətlərarası komissiyanın iclasının keçirilməsinin iqtisadi əməkdaşlığımızın möhkəmlənməsi işinə töhfə verəcəyini vurğuladılar.

Dövlət başçıları, eyni zamanda, ölkələrimizin biznes dairələri arasında əlaqələrin genişləndirilməsi və gələcəkdə biznes forumun keçirilməsi perspektivlərini də müzakirə etdilər. Moldova Prezidenti dövlətimizin başçısını ölkəsinə rəsmi səfərlə bağlı dəvətini bir daha diqqətə çatdırdı. Prezident İlham Əliyev də öz növbəsində, münasib vaxtda Moldova Prezidenti İqor Dodonu Azərbaycana rəsmi səfərə dəvət etdi.



## Əməkdaşlığın postpandemiya dövründə inkişaf perspektivləri müzakirə edilib

Mayın 18-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Telefon söhbəti zamanı dövlət başçıları koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən işlərdən danışıb, bu istiqamətdə ölkələrimizin sərhəd-keçid məntəqələrində qarşılıqlı əlaqələndirmə şəraitində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparıblar.

Dövlət başçıları Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq əməkdaşlığımızın postpandemiya dövründə inkişaf perspektivlərini də müzakirə ediblər.

*Prezidentin Mətbuat Xidməti*

## Prezident İlham Əliyev islahat siyasətini kreativ tədbirlərlə zənginləşdirir

*Azərbaycanın "Smart ölkə"yə çevrilməsi perspektivi gündəmə gəlir*

Ölkənin iqtisadi müstəvisində son günlər baş verən hadisələrin və tədbirlərin sırasında Azərbaycan Prezidentinin CISCO şirkətinin təşəbbüsü ilə bu şirkətin rəhbərləri arasında videokonfrans keçirməsi bir neçə səbəbdən maraqlıdır. Mahiyyət etibarı ilə söhbət ekoloji balansın qorunmasından, su ehtiyatlarının səmərəli idarə edilməsindən və yeni idarəetmə sistemlərinin tətbiqində aparıcı şirkətlərin təcrübəsindən faydalanmaqdan gedir.

Əslində, bu videokonfransı Davosda keçirilən görüşlərin uğurlu davamı kimi də qiymətləndirmək mümkündür. Bideobağlantıda CISCO şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer COVID-19 virusu ilə əlaqədar Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının toplantısında və Qoşulmama Hərəkatının görüşünün təşkil edilməsində liderlik və rəhbərlik səylərinə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirmişdir.

Şirkətin vitse-prezidenti Qay Ditrix videobağlantıda "Smart ölkə", təhsil və kibertəhlükəsizlik sahələri üzrə əməkdaşlığı üç əsas prioritet istiqamət kimi Azərbaycan Prezidentinin diqqətinə təqdim etmişdir. Qay Ditrix Azərbaycanda icra edilən birgə layihələrin nəticələri, uğurlu əməkdaşlıq əlaqələri və qazanılan müsbət təcrübədən danışmışdır.

Ardı 3-cü səh.

## AÇG və «Şahdəniz»in Azərbaycan iqtisadiyyatına töhfəsi böyükdür

### Bu dəniz yataqlarının karbohidrogenləri gəlir gətirməkdə davam edir

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) "Azəri-Çıraq-Günəşli" (AÇG) və "Şahdəniz" yataqlarından gəlirləri açıqlayıb. Belə ki, bu il yanvarın 1-dən mayın 1-nədək AÇG-dən 1 983 milyon ABŞ dolları həcmində gəlir əldə olunub. O cümlədən, həmin dövrdə "Şahdəniz" yatağı üzrə kondensatın satışından əldə olunan gəlirlər 112 milyon dollar təşkil edib. ARDNF-nin məlumatında, həmçinin bildirilir ki, bu ilin dörd ayı ərzində "Şahdəniz" yatağı üzrə qazın satışından 59 milyon dollar gəlir əldə olunub.

Xəzərin Azərbaycan sektorundakı AÇG və "Şahdəniz" yataqları hazırda dünyada istismar olunan ən böyük və zəngin karbohidrogen yataqlarıdır. AÇG 26 ilə yaxındır etibarlı tərəfdaşlıq, ekoloji baxımdan zərərsiz əməliyyatlar sayəsində təhlükəsiz işlənir, ahəngdar şəkildə neft və qaz verir.

Ardı 3-cü səh.



## İlham Əliyev həmkarını təbrik etdi

Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə telefonla zəng edib.

Dövlətimizin başçısı Qazaxıstan Prezidentini ad günü münasibətilə təbrik edib, ona Qazaxıstanın inkişafı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Qazaxıstan Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı dövlət başçıları koronavirus pandemiyası əleyhinə mübarizə ilə bağlı görülən işlər barədə fikir mübadiləsi aparıblar.

Dövlət başçıları bu yaxınlarda Türk Şurasının videokonfrans formatında keçirilən Zirvə toplantısına toxunaraq bu tədbirin ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsi və həmrəyliyin gücləndirilməsi baxımından önəmini qeyd ediblər.

Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayev ölkələrimiz arasında uğurla inkişaf edən ikitərəfli münasibətlərin müxtəlif sahələrinin perspektivləri ilə bağlı məsələləri müzakirə ediblər.

*Prezidentin Mətbuat Xidməti*

- Özünü, doğmalarını və dostlarını qorumaq:
- Koronavirusa qalib gəlmək üçün

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər



## “Sizin kimi liderimiz olduğu üçün özümüzü xoşbəxt vətəndaşlar hesab edirik”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir.

AZƏRTAC həmin məktubların daha bir neçəsini təqdim edir.

Füzuli rayonunun 4-cü Zobucuq qəsəbəsinin sakini, şəhid ailəsinin üzvü **Səadət Hüseynova** yazır: “Möhtərəm cənab Prezident, koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə dövlətimizin həyata keçirdiyi mübarizə tədbirləri Azərbaycan vətəndaşı, eyni zamanda, bir mədəniyyət işçisi olaraq məni ürəkdən sevindirir. Sizi daim xalqın yanında görmək bizi fərəhləndirir. Bu təhlükəli virusun respublikamızda yayılmaması üçün gördüyünüz işlər olduqca təqdirəlayiqdir. Siz karantin rejimi dövründə mədəniyyət işçilərinə diqqət və qayğınızı əsirgəmədiniz. Karantin müddətində əməkhaqlarımız saxlanılmaqla növbədənkənar məzuniyyətə buraxılmağımız buna ən gözəl nümunədir. Füzuli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin kollektivi bütün sahələrdə olduğu kimi, pandemiyanın qarşısının alınması üçün verdiyiniz qərar və göstərişləri də dəstəkləyir, bu mübarizədə daim Sizin yanınızdadır.

Möhtərəm cənab Prezident, şəhid ailəsinin üzvü olaraq bu çətin günlərdə xalqımıza, o cümlədən biz mədəniyyət işçilərinə göstərdiyiniz qayğıya görə Sizə dərin minnətdarlığımı bildirirəm”.

Ağsu rayonunun Bənəcik kəndindən tələbə **Qurban Babazadə:** “Möhtərəm cənab Prezident, Planetimizi çənginə alan koronavirus pandemiyası nəticəsində bu gün dünya iqtisadiyyatı dərin böhran və çətinliklə üzləşib. Lakin Sizin verdiyiniz göstərişlər nəticəsində ölkəmizdə pandemiyanın geniş yayılmasının qarşısını almaq mümkün oldu.

Cənab Prezident, Sizin uğurlu siyasətinizin bariz nümunəsidir ki, Azərbaycanda sabitlik hökm sürür, yoluxma halları getdikcə azalır. Bu günlərdə Sizin və Mehriban xanımın xalqımıza böyük qayğınızın və dəstəyinizin şahidi olduq. Allah Sizi qorusun! Ali dövləti fəaliyyətinizdə Sizə uğurlar arzu edirik”.

Bakı şəhərinin Xətai rayonunda yaşayan şagird **Murad İbadovun** məktubunda deyilir: “Hörmətli cənab Prezident, mən 6-cı sinifdə oxuyuram. Hər gün onlayn şəkildə dərslərimə davam edirəm.

Cənab Prezident, bütün dünyada tüğyan edən pandemiyaya baxmayaraq, Sizin uzaqgörən siyasətiniz, verdiyiniz qərarlar sayəsində ölkəmizdə bu xəstəlik geniş yayılmadı. Sizin sayənizdə ölkəmiz normal həyata qayıdır.

Cənab Prezident, gördüyünüz işlər biz məktəblilərə çox böyük kömək edir və daha işıqlı gələcəyə ümid verir. Buna görə Sizə təşəkkürümü bildirirəm”.

Qubadlı rayonundan məcburi köçkünlər **Dilarə Aydınova** və **Cavid Almuradov:** “Möhtərəm cənab Prezident, məcburi köçkünlər Sizə duaçıdırlar. Həm sosial problemlərimizin həllinə, həm də pandemiya dövründə az itki verdiyimizə görə Sizə təşəkkür edirik. Biz, Qubadlıdan olan məcburi köçkünlər Sizi və ailə üzvlərinizi özümüzə ən yaxın insanlar bilib həmişə dəstəkləmişik. Sizin yolunuzla ona görə gedirik ki, bu yolda inkişaf, tərəqqi var. Sizin pandemiya ilə əlaqədar xalqa müraciətləriniz bizim üçün müstəsna rol oynadı. Dəyərli tövsiyələr, həmrəyliyə çağırış bizim bu xəstəliklə layiqli mübarizə aparmağımıza zəmin yaratdı. Sizə bir daha təşəkkür edirik, cənab Prezident”.

Cəbrayıl rayonundan şagird **Ləman Həşimli** dövlət başçısına minnətdarlığını aşağıdakı sözlərlə ifadə edir: “Əziz və möhtərəm Prezident, mən orta məktəb şagirdiyəm. Gördüyünüz işləri sözlə ifadə etməkdə çətinlik çəksəm də, yenə də öz səmimi sözlərimi Sizə yazmaq qərarına gəldim. Hazırda bütün dünya koronavirusla mübarizə aparır. Hətta ən böyük dövlətlər belə bu pandemiyaya qalib gələ bilmir. Azərbaycan da koronavirusa hələ ki, tam qalib gəlməsə belə, itkilərimizin az olması, xəstəliklə səmərəli mübarizə aparmağımız şəxsən məni sevindirir. Sizə sonsuz minnətdarlığımı bildirirəm, əziz Prezidentim!”

Bakı şəhərinin sakini **Pərvanə Muradova:** “Möhtərəm cənab Prezident, mən evdar xanımam. İki övladım var. Özümə borc bildim ki, Sizə təşəkkür edim. Siz bizim ölkəmizi həmişə qorumusunuz, bu gün də qoruyursunuz. Yaxşı ki, bizim Prezidentimiz Sizsiniz. Yaxşı ki, biz Sizi seçmişik. Mən bu gün də evimdə çox rahat yaşayıram. Ən əsası, ölkəmizdə əmin-amanlığı qoruyursunuz. Bizi COVID-19 bəlasından qoruyursunuz. Bütün ölkələrdə hər gün minlərlə insan bu xəstəliyə düçar olur. Amma biz Sizin səyiniz nəticəsində bu xəstəliyə demək olar ki, qalib gəlmişik. Biz bu gün də evdə qalırıq, çünki bu bizim xeyirimizədir. Çox sağ olun, əziz Prezidentimiz. Sizi çox sevirik. Allah Sizi həmişə var etsin! Həmişə bizim arxamızda dağ kimi dayanasınız. Allah Sizi pənahında saxlasın!”

Gədəbəy rayonundan **İsmayıl Yuniszadə** və **Nofəl Qasımov** yazırlar: “Hörmətli cənab Prezident, koronavirus pandemiyasının dünyanı çənginə aldığı bir zamanda ölkəmizin hər bir vətəndaşına göstərdiyiniz diqqət və qayğıya görə bütün gədəbəylilər adından Sizə təşəkkürümüzü bildiririk. Uca Allah Sizi və ailənizi qorusun! Siz bir daha sübut etdiniz ki, hər bir vətəndaşın xidmətindəsiniz, dar gündə xalqımızın yanındasınız. Biz Sizinlə fəxr edirik”.

Qaradağ rayonunun Qobustan qəsəbəsindən **Nəzakət Rəhimova:** “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, mən bir Azərbaycan vətəndaşı olaraq Sizinlə qürur duyuram. Mənim iki nəvəm var, onlar da Sizinlə fəxr edirlər. Siz ölkəmizi koronavirus pandemiyasından qorumaq üçün əlinizdən gələni əsirgəmirsiniz. Koronavirusla əlaqədar atdığınız qabaqlayıcı addımların nəticəsidir ki, hazırda ölkəmizdə insan itkisi çox azdır. Bu, Sizin sayənizdəndir. Sizə dərin təşəkkürümü bildirirəm. Mən hər gün Sizə və ailənizə dualar edirəm. Allah Sizi qorusun! Nə yaxşı ki, varsınız. İnşallah, bu bəla tezliklə bütün yer üzündən yox olar. Allah Sizi və ailənizi qorusun!”

Masallı rayonunun sakinləri **Bəhram Yaqubov, Simran Əliyev, Aydın Nuralıyev, Ülfət Məmmədov, Kinəxanım Əliyeva, İlkin Ağayev** və **Raci Məmmədov** yazırlar: “Hörmətli cənab Prezident, Sizin uzaqgörən siyasətiniz, vaxtında verdiyiniz qərarlar nəticəsində Azərbaycan bu gün pandemiyadan ən az zərər çəkən ölkələrdən biridir. Çünki Sizin müdrik idarəçiliyiniz sayəsində ölkəmizdə bu bəlaya qarşı vaxtında səmərəli tədbirlər görüldü. Sizin və Mehriban xanımın xalqa müraciətləriniz hamını səfərbər etdi. Xüsusi karantin rejiminin tətbiqi, bu müddətdə evdə qalan şəxslərin maaşlarının verilməsi, bu mübarizədə zəhməti olan hər kəsin əməyinin qiymətləndirilməsi Sizin humanistliyinizdən irəli gəlir.

Cənab Prezident, Azərbaycan xalqı yaranan çətinliklərin öhdəsindən həmişə gəlib. Ölkəmizdə böyük uğurların əsas səbəbi liderlə xalqın birliyidir. Ən çətin vaxtlarda lider öz xalqının, vətəndaş isə öz liderinin yanındadır. İnanırıq ki, tezliklə bu narahat günlərimiz arxada qalacaq, rəhbərliyinizlə bu bəladan xilas olacağıq və ölkəmizdə həyat yenidən əvvəlki axarına düşəcək. Bu günlərdə vətəndaşlara göstərilən qayğı Sizin nə qədər güclü lider olduğunuzu nümayiş etdirir. Sizə məsuliyyətli və şərəfli işinizdə uğurlar arzulayırıq”.

Bakı şəhərinin sakini **Nailə Qarayeva:** “Hörmətli cənab Prezident, Siz hər bir azərbaycanlının Prezidentisiniz. Bunu belə ağır günlərdə xalqımızın yanında olmaqla bir daha sübut etdiniz. Çox təəssüflər olsun ki, bütün dünyanın bəlasına çevrilmiş COVID-19 Azərbaycanımızdan da yan keçmədi. Lakin Siz öz köməyinizi, qayğınızı bizlərdən, xalqımızdan əsirgəmədiniz. Ümummilli Lider Heydər Əliyev xalqını böyük bəlalardan necə qorumuşdusa, Siz də bizi elə qoruyursunuz. Çünki Siz Ulu Öndərin layiqli davamçısısınız. Biz əminik ki, müdrik qərarlarınız sayəsində ölkəmiz koronavirus pandemiyası ilə mübarizdən üzüağ çıxacaq və biz firavan həyatımıza davam edəcəyik. Əziz Prezidentim, biz Sizinlə fəxr edirik. Tanrı Sizi və ailənizi qorusun!”

Göygöl rayonunun sakinləri **Fəridə Rəhimova, Cəmilə Zeynalova, Qədir İmanov, Zəri İbrahimova, Cəmilə İmanova, Hüseyn İbrahimov, Barat Paşayev** və **Şamil Həsənov** yazırlar: “Hörmətli cənab Prezident, son zamanlar bütün dünyanı bürümüş koronavirus pandemiyası dövlətimizi də qayğılandırdı. Lakin Sizin qətiyyətiniz ölkəmizi böyük ziyanlardan qorudu. Əminik ki, Sizin rəhbərliyinizlə bu vəziyyətdən şərəflə və üzüağ çıxacağıq. Siz dövlətimizin bütün maddi imkanlarını məhz bu epidemiyanın aradan qaldırılmasına yönəltdiniz. Epidemiyaya qalib gəlmək üçün genişmiqyaslı və davamlı tədbirlər həyata keçirilir.

Hörmətli cənab Prezident, koronavirusla əlaqədar xalqımızın sağlamlığını qorumaq üçün verdiyiniz uzaqgörən qərarlarınız sayəsində dövlətimiz bu bəladan minimum itki ilə qurtulmaqdadır. Verdiyiniz tapşırıqların və qərarların nəticəsi olaraq virusun ölkəmizdə yayılmasının qarşısı alındı.

Cənab Prezident, bizlərin sağlamlığına göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarıq. Tanrı Sizi qorusun!”

Gəncə şəhərindən müəllim **Günay Abbasova:** “Hörmətli cənab Prezident, Sizi Gəncə şəhər 1 saylı orta məktəbin ingilis dili müəllimi olaraq salamlayır və Sizə minnətdarlığımı bildirmək istəyirəm. Hazırda tətbiq edilən xüsusi karantin rejimi müddətində Sizin tövsiyələrinizə uyğun olaraq evdə qalmağa davam edirik. Koronavirusla əlaqədar məktəblərimiz müvəqqəti bağlandığı üçün dərsləri də onlayn formatda keçirik. Məqsədimiz isə şagirdlərimizin evdə qaldıqları müddətdə dərslərindən geri qalmamalarıdır.

Möhtərəm cənab Prezident, COVID-19 pandemiyasının dünyanın bir sıra ölkələrində bəşəriyyət üçün necə fəlakətli nəticələr törətdiyinin şahidiyik. Buna rəğmən, Sizin uzaqgörən qərarlarınızla vaxtında görülən qabaqlayıcı tədbirlər nəticəsində koronavirusun Azərbaycanda geniş yayılmasının qarşısı alınmaqdadır. Siz bu çətin günlərdə xalqımızın sağlamlığını qorumaqla bərabər, virusa yoluxmuş vətəndaşlarımızın müalicəsi və tez bir zamanda sağalması istiqamətində də çox böyük işlər görürsünüz. Gördüyünüz bu misilsiz işlər xalqımız tərəfindən yüksək qiymətləndirilir. Pandemiya dövründə yorulmaz fəaliyyətinizlə xalqımıza göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımı bildirirəm. Biz Azərbaycan kimi gözəl bir ölkədə yaşamağımızla fəxr edir və Sizin kimi liderimiz olduğu üçün özümüzü xoşbəxt vətəndaşlar hesab edirik. Bəşəriyyət üçün çətin bir dövrdə bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdaram”.

Quba rayonunun sakinləri **Xəzər Lalayev, Hacı Şabanov, Tərlan Abdürrəhmanov** və **Qəmbər Vəliyev** yazırlar: “Hörmətli cənab Prezident, koronavirusla mübarizədə ölkəmiz üçün ən doğru qərarları verdiniz. Sizin vaxtında və doğru qərarlarınız xalqımızı ağır itkilərdən qorudu. Uca Rəbbimizin köməyi, Sizin müdrik qərarlarınız, həkimlərimizin fədakarlığı sayəsində koronavirus təhlükəsi ölkəmizdən geri çəkilir. Biz hər zaman Sizin yanınızdayıq, necə ki, Siz hər zaman Azərbaycan xalqının yanındasınız. Əminik ki, bundan sonrakı fəaliyyətiniz, gələcək addımlarınız da xalqımızın rifahını yüksəltməyə xidmət edəcək. Biz Sizinlə fəxr edirik, cənab Prezident”.

Qazax rayonunun sakinləri **Əskinaz Namazova** və **İlhamiyyə Əsədova** yazırlar: “Hörmətli cənab Prezident, Siz bizim dəyərli, sevimli liderimizsiniz. Xalqımızı koronavirus bəlasından qoruduğunuza görə Sizi dünyalar qədər sevən analar adından minnətdarlığımızı bildiririk. Siz bizim sağlamlığımız naminə böyük işlər görürsünüz. İşsizlərə, tənha qalanlara edilən yardımlar həm maddi, həm mənəvi kömək oldu. Siz xalqımızın xilaskarı, bütün anaların fəxrisiniz. Uca Allah Sizi və ölkəmizi bəd nəzərdən qorusun, Sizin kölgənizi xalqımızın başının üzərindən əskik etməsin!”

Xırdalan şəhərinin sakini **Rauf Rəhimovun** məktubunda deyilir: “Hörmətli cənab Prezident, bəşəriyyəti çənginə almış koronavirusla mübarizədə dünyanın aparıcı dövlətləri belə çətinliklərlə üzləşiblər. Sizin iqtisadi və siyasi sahələrdə yürütdüyünüz düzgün və məqsədyönlü siyasət, həyata keçirilən qətiyyətli və qabaqlayıcı tədbirlər xalqımızın bu bəladan az itkilərlə çıxmasına zəmin yaratdı. Əminik ki, dünyanı çənginə alan xəstəlikdən tezliklə qurtulacağıq. Ölkə əhalisinə göstərdiyiniz maddi və mənəvi dəstəyə görə Sizə təşəkkür edirik. Allah xalqımızı bəlalardan qorusun! Sizə uzun ömür, cansağlığı arzu edirik”.

Ağdam rayonundan **Eldəniz Mustafayev, Sadiq Süleymanov, İlqar Cəfərov** və **Rəyis Həsənov** yazırlar: “Hörmətli cənab Prezident, dünyanın koronavirus qarşısında aciz qaldığı bir dövrdə Sizin müdrikliyiniz və yüksək idarəçilik bacarığınız sayəsində Azərbaycan bu bəladan qurtulmaqdadır. Bütün dünya ölkəmizdə xalqın iqtidara olan inamını və rəhbərliyə olan sevgisini, etibarını gördü. Bu ağır dövrdə Sizin rəhbərliyinizlə bütün qurumlar var gücü ilə çalışdı. Rayonumuzun sakinləri xüsusi karantin rejimi dövründə qoyulan qaydalara ciddi riayət etdilər, bu müddətdə xüsusi diqqət və qayğı ilə təmin olundular. Bütün bunlara görə, cənab Prezidentimiz, başda Siz olmaqla, əməyi keçən hər kəsə dərin minnətdarlığımızı bildirir, Sizə ölkəmizin inkişafı naminə fəaliyyətinizdə bol-bol uğurlar arzulayırıq”.

Siyəzən rayonunun Həmyə kəndindən **Nəzrin İskəndərova:** “Cənab Prezident, Sizin rəhbərlik etdiyiniz ölkənin vətəndaşı olmaqdan, doğma Azərbaycanımızda yaşamaqdan qürur duyuram. Azərbaycan xalqının sağlamlığı və ölkəmizin təhlükəsizliyi üçün gördüyünüz tədbirlər, vətəndaşlarımızın rifahı naminə aparılan işlər təqdirəlayiqdir. Xüsusi karantin rejiminin tətbiqi, kütləvi və ictimai yerlərdə bir müddət qadağaların və məhdudiyyətlərin olması öz səmərəsini verdi. Bu tədbirlər koronavirusun ölkəmizdə geniş yayılmasının qarşısının alınmasında həlledici oldu. İnanıram ki, həmin qadağa və məhdudiyyətlər tədricən aradan qaldırıldıqdan sonra da vətəndaşlarımız virus təhlükəsinə qarşı ayıq-sayıq olacaq, həssas davranacaqlar. Çünki hamımız başa düşürük ki, bu, koronavirusa qarşı mübarizədə uğurumuzun əsas şərtidir. Cənab Prezident, bu çətin mübarizə dönəmində gördüyünüz çoxsaylı təqdirəlayiq işlərə görə Sizə minnətdarlığımı bildirirəm”.

Hacıqabul rayonunun Atbulaq kəndinin sakini **Babək Ramazanov:** “Hörmətli cənab Prezident, COVID-19 pandemiyası ilə əlaqədar gördüyünüz işlərə görə Sizə həm öz adımdan, həm də ailəm adından dərin təşəkkürümüzü bildiririk. Cənab Prezident, dünya iqtisadiyyatının demək olar ki, çökdüyü bir dövrdə Azərbaycan vətəndaşının sağlamlığını düşünərək atdığınız addımları hər bir vətəndaş kimi biz də yüksək qiymətləndiririk. Pandemiya ilə əlaqədar olaraq qısa zamanda yeni laboratoriyaların quraşdırılması, süni nəfəs aparatlarının ölkəmizdə gətirilməsi, həmçinin qoruyucu tibbi maska və sport istehsalı müəssisələrinin istifadəyə verilməsi, ölkə vətəndaşlarının bu məhsullara olan tələbatının yerli istehsal hesabına ödənilməsi Sizin siyasətinizin növbəti uğurudur. Həmçinin pandemiya ilə əlaqədar işsiz qalan vətəndaşlara birdəfəlik ödənişin edilməsi Azərbaycan vətəndaşına verdiyiniz yüksək qiymətin əyani sübutdur. Bu gün hər bir vətəndaş tam əmindir ki, Azərbaycan Prezidenti daim onun yanındadır və daim onu düşünür.

Cənab Prezident, sağlamlığımız üçün atdığınız bütün addımlara görə bir daha Sizə dərin minnətdarlığımızı bildirir, Uca Tanrıdan sağlam və uzun ömür diləyirik. Allah Sizi və ailənizi qorusun!”

Kəlbəcər rayonundan məcburi köçkün **Fazil Məlikov** yazır: “Hörmətli cənab Prezident, xalqımız üçün bu narahat günlərdə mən də Sizə məktub yazmağı özümə borc bildim. İlk növbədə, qeyd edim ki, Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan Respublikasına rəhbər təyin olunduğu 1969-cu ildə mən Azərbaycan Tibb Universitetinə daxil olmuşam. Həmin illərdə bir çox tələbə kimi, mən də müxtəlif dövlət tədbirlərində iştirak etmişəm, Ulu Öndərin necə böyük siyasi xadim olduğunu yaxından görmüşəm. Xoşbəxtlik mənə Zərifə xanım Əliyevanı da görməyi qismət edib. Belə ki, göz xəstəlikləri üzrə təcrübə dərslərini Zərifə xanımın işlədiyi tibb ocağında keçmişəm. Onun necə mehriban, sadə və savadlı bir həkim olduğuna şahidlik etmişəm.

Əziz Prezidentimiz, Siz bu ziyalı ailənin layiqli davamçısı olaraq insanlara qayğı göstərir, ölkəmizin uğurlu inkişafını təmin edirsiniz. Mən bir həkim-pediatr olaraq bilirəm ki, xəstəliyin profilaktikası onun müalicəsindən daha asan və səmərəlidir. Sizin koronavirus xəstəliyinə qarşı vaxtında tədbirlər görməyinizin nəticəsidir ki, Azərbaycan bir çox ölkələrdən daha az yoluxma və ölüm halına malikdir. Əminik ki, Siz bu çətinliyin də öhdəsindən gələcəksiniz. Biz kəlbəcərlilər Sizinləyik. Bir daha Sizə təşəkkür edirəm”.

Xocalı rayonundan məcburi köçkün, şəhid ailəsinin üzvü **Vüsal Əmirlinin** məktubunda deyilir: “Möhtərəm cənab Prezident, koronavirus (COVID-19) xəstəliyi dünyada hələ pandemiya elan edilməmişdən əvvəl epidemiyanın geniş vüsət alacağını uzaqgörənliklə düşünərək başda səhiyyə sahəsi olmaqla, bütün qurumları səfərbər etməyiniz, xalqımızı bu xəstəlikdən qorumaq üçün atdığınız addımlar, iqtisadiyyatın dayanıqlılığını təmin etmək üçün ayırdığınız böyük vəsaitlər Sizin necə güclü lider olduğunuzu dünyaya bir daha sübut etdi. Dünyanın üzləşdiyi bu çətin dövrdə Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondu vasitəsilə on minlərlə ailəyə etdiyi yardımlar bütün xalqın sizlərə olan rəğbətini daha da artırdı.

Cənab Prezident, bir şəhid övladı olaraq Sizə və Mehriban xanım Əliyevaya minnətdarlığımı bildirir, təşəkkür edirəm”.

Saatlı rayonunun Qaralar kəndindən **Hafiz Babayev:** “Hörmətli cənab Prezident, mənim 82 yaşım var. Sizin tapşırığınıza əməl edərək iki aya yaxındır ki, evimdə qalıram, ən əziz insanlarımı görməyə də getmirəm. Bilirəm ki, yaşlı insan virusa tez yoluxur və xəstəliyi daha ağır keçirir. Mən mütəmadi olaraq xəbərləri izləyirəm. Bu virusun dünyanın 200-dən çox ölkəsində yayıldığını bilirəm. Özü də əksər ölkələrdə kütləvi insan tələfatına səbəb olub. Lakin Sizin uzaqgörənliyiniz, xalqınıza qayğıkeşliyiniz nəticəsində Azərbaycanda ölüm və yoluxma sayı çox azdır.

Hörmətli cənab Prezident, XXI əsrin ən qorxulu bioloji müharibəsindən xalqımızın salamat qurtulması üçün göstərdiyiniz fədakarlığa görə şəxsən öz adımdan və ailə üzvlərimin adından Sizə minnətdarlığımı bildirirəm. Tanrı hər zaman köməyiniz olsun!”

Ağdam rayonunun sakini **Rövşən Şıxıyev:** “Hörmətli cənab Prezident, Sizin Azərbaycan Respublikasının inkişafında çox böyük xidmətləriniz var. Ağdam rayonunda bütün sahələrdə aparılan işlər sakinlər tərəfindən yüksək qiymətləndirilir. Rayon ictimaiyyəti Sizin siyasətinizi həmişə dəstəkləyib, bundan sonra da dəstəkləyəcək. Ağdamdan Bərdəyə gedən və uzunluğu 30 kilometr olan yeni yolun tikilməsi, rayonun İmamqulubəyli kəndində tibb məntəqəsinin istifadəyə verilməsi rayon sakinlərinin böyük sevincinə səbəb olub. Rayon ərazisində qısa müddətdə bir neçə uşaq bağçasının tikilməsi isə Sizin gələcəyimiz olan uşaqlara qayğınızın göstəricisidir. Bu işlərin belə qayğılı günlərdə də dayanmaması Sizin əzminiz sayəsindədir. Rayonda aztəminatlı ailələrə verilən yardımlar həm də onlara mənəvi dəstəkdir.

Möhtərəm cənab Prezident, biz ağdamlılar görülən işlərə, yaradılan şəraitə görə Sizə minnətdarlığımızı bildirir, uğurlu fəaliyyətinizdə yeni zirvələr fəth etməyi arzulayırıq”.

Lerik rayonunun Vistən kəndinin sakini **Coşqun Rəsulov:** “Möhtərəm cənab Prezident, dünyanı çənginə alan koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısını almaq üçün uzaqgörənliklə qəbul etdiyiniz qərarlar, rəhbərliyinizlə həyata keçirilən tədbirlər və əldə olunan nəticələr bir vətəndaş kimi məndə qürur hissi doğurur. Hər gün müxtəlif informasiya vasitələrindən dünya üzrə pandemiyaya yoluxanların və ölənlərin sayını öyrənirik. Bizdə bu rəqəmlərin qat-qat aşağı olması məhz Sizin vaxtında həyata keçirdiyiniz məqsədyönlü tədbirlərin nəticəsidir. Siz hər bir vətəndaşın Prezidentisiniz. Bunu atdığınız hər addımda, xüsusilə bugünkü çətin dövrdə sübut edirsiniz.

Cənab Prezident, daim Sizin yanınızdayıq və səsinizə səs veririk. Biz birlikdə güclüyük!”.

Lənkəran rayonunun Kərgəlan kəndindən **Cümşüd Kərəmov:** “Möhtərəm cənab Prezident, Siz daim Azərbaycan xalqının yanındasınız, ona diqqət və qayğı göstərirsiniz. Koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının vaxtında alınması üçün gördüyünüz tədbirləri alqışlayır, sağlamlığımızın qorunması üçün verdiyiniz tövsiyələri yüksək dəyərləndiririk. Bu ağır günlərdə xalqımızın sağlamlığını, onun rifahını hər şeydən üstün tutduğunuza görə Sizə minnətdarlığımızı bildirir, “Çox sağ olun!” deyirik. Allahdan Sizə dünyada ən gözəl nemət olan cansağlığı diləyirik. Allah Sizi qorusun!”

Gəncə şəhərinin sakini **Səbinə Əlizadə:** “Əziz Prezidentimiz, mən bir təhsil işçisi olaraq apardığınız uğurlu siyasəti yaxından izləyir və tam dəstəkləyirəm. Son zamanlar dünyada və ölkəmizdə baş verən hadisələrlə əlaqədar Sizin təəssübkeşliyinizdən və fədakarlığınızdan qürur hissi duyuram. Koronavirusa qarşı vaxtında həyata keçirdiyiniz profilaktik tədbirlərin səmərəsini və müsbət nəticələrini hamımız görürük. Sizin istər siyasi, istərsə də sosial sahədə atdığınız hər addımınız demokratik və humanist ideyalara söykənir.

Əziz Prezidentimiz, tarix hər zaman öz liderlərini yetişdirir. Siz müstəqilliyimizi, rifahımızı bizə bəxş edən dahi liderimizin xalqımıza miras qoyduğu siyasətin ən uğurlu və layiqli davamçısısınız. Biz Sizi hər zaman dəstəkləyirik və Sizə inanırıq”.

Bərdə rayon sakinləri **Sənubər Nəcəfova, Nüsrət Məmmədov, İsmət Hacıyev** və **Səfiyar Nayıbov** yazırlar: “Hörmətli cənab Prezident, Sizin koronavirus pandemiyasına qarşı mübarizə ilə bağlı imzaladığınız sərəncamları, sosial həmrəylik nümayiş etdirilməsinə dair dəyərli tövsiyələrinizi və təşəbbüslərinizi dəstəkləyirik. Vaxtında görülmüş operativ və təxirəsalınmaz tədbirlər nəticəsində hazırda respublikamızda koronavirus pandemiyasına qarşı səmərəli mübarizə aparılır. Dövlətimiz bu gün də əhalinin sağlamlığını qorumaq, koronavirusun yayılmasının qarşısını almaq üçün səylərini davam etdirir. Xalqımızın bu bəladan minimum zərərlə xilas olacağına əminik.

Cənab Prezident, vətənimiz və xalqımız üçün gördüyünüz bütün işlərə, yorulmaz fəaliyyətinizə görə Bərdə rayonunun sakinləri adından Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığımızı bildiririk. Əminik ki, koronavirusla mübarizə çərçivəsində atdığınız qətiyyətli və humanist addımlar öz bəhrəsini verəcək”.

Lerik rayonundan **Nəriman Həsənov, Nazim Əliyev** və **Mehdi Ağayev** dövlət başçısına minnətdarlıqlarını bu sözlərlə ifadə edirlər: “Hörmətli cənab Prezident, Siz Azərbaycan xalqının qəhrəman oğlusunuz. Azərbaycan xalqının sağlamlığı, sosial rifahı üçün göstərdiyiniz fədakarlıqları biz leriklilər çox yüksək qiymətləndiririk. Sizin məqsədyönlü işləriniz, vaxtında gördüyünüz tədbirlər hesabına biz böyük bir çətinliyi dəf etməkdəyik. Siz həmişə olduğu kimi, koronavirusla mübarizədə də doğru yolla getdiniz, uğurlu yol seçdiniz.

Cənab Prezident, biz Sizi dəstəkləyir, Sizə uzun ömür, möhkəm cansağlığı arzulayırıq. Siz Azərbaycan xalqının fəxrisiniz”.

## Ağsu rayonunda əkin sahələrinin su təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağsu rayonunda əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Qazanarx kanalının yenidən qurulması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.21-ci yarımbəndində göstərilmiş məbləğin 3,3 milyon (üç milyon üç yüz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1050, № 12, maddə 1939) ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na aşağıdakı məzmunda 2.7-1-ci bənd əlavə edilsin:

"2.7-1. Kənd təsərrüfatı məhsullarının istehsalçılarına bitkiçilik və heyvandarlıq sahələri üzrə subsidiyaların ödənilməsi məqsədilə subsidiya məbləğləri köçürülən plastik kartların hazırlanması və göstərilən bank xidmətləri Agentliyin müvəkkil bankla razılaşdırılmış sifarişi əsasında hər il dövlət büdcəsindən ayrılan vəsait hesabına həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2020-ci il*

# Əsl liderlik missiyası

## Prezident İlham Əliyevin qlobal təşəbbüsləri bu gün dünya liderləri, aparıcı biznes və maliyyə institutları tərəfindən təqdir edilir



*Əvvəli 1-ci səh.*

ABŞ-ın tanınmış şirkəti olan bu şirkətin rəhbərliyi ilə keçirilən maraqlı konfransda cənab İlham Əliyev, həmçinin iki ölkə arasındakı münasibətə toxunaraq əlaqələrin yüksələn xətlə inkişaf etdiyini təsdiqləyən Prezident Donald Trampın məktubunu da xatırlatdı: "Öz məktubunda Prezident Tramp yazır ki, təxminən 30 ildir Birləşmiş Ştatlar və Azərbaycan beynəlxalq təhlükəsizliyi, enerji təchizatının şaxələndirilməsini, siyasi islahatlar məsələlərini təmin etmək üçün birgə işləyirlər. Həmin məktubda, o, xüsusi olaraq qeyd edir ki, iki böyük dövlətimiz gələcəkdə daha çox işlər görəcək. Bu, ABŞ ilə Azərbaycan arasında dostluğun çox mühüm təzahürüdür".

CISCO şirkətinin Rusiya və MDB ölkələri üzrə vitse-prezidenti Conatan Spərrou isə qurumun Azərbaycanla fantastik əməkdaşlığından söz açaraq dedi ki, şirkət bu əlaqələrin davamlı olmasını arzulayır.

Prezident İlham Əliyev isə əminliklə vurğuladı ki, strateji tərəfdaşlıq bundan sonra da yalnız güclənəcək: "Çünki bizim Azərbaycanın daha da müasirləşdirilməsi ilə bağlı gündəliyimiz, sizin isə texnologiyanız var. Bizim uzun illərdir ki, əməkdaşlıq təcrübəmiz var. Artıq qeyd etdiyim kimi, burada layihələrin uğurlu icrası birgə səylərimizin ən yaxşı təzahürüdür".

Dövlət başçısı hesab edir ki, potensiallar səfərbər edilməklə nisbətən qısa müddət ərzində çox işlər görmək mümkündür. Bu isə cənab İlham Əliyevin Azərbaycanın daha da müasirləşdirilməsi baxışına tam uyğun olacaq.

### Liderlik keyfiyyəti və siyasi iradənin uğurlu göstəricisi

Bütün qeyd olunanlar bir daha onu deməyə əsas verir ki, cənab İlham Əliyevin bilavasitə qlobal lider olaraq dünya səviyyəsində irəli sürdüyü təşəbbüslər, pandemiyaya qarşı birgə mübarizə, qlobal bəladan birgə çıxış yollarının axtarılıb araşdırılması, eyni zamanda, iqtisadi tənəzzüldən və bir çox sahələrdəki çətinliklərdən çıxmaqla bağlı birgə konkret tədbirlər planının hazırlanması dünya birliyi tərəfindən dəstəklənir.

Prezidentin bu məsələdə Ümumdünya Səhiyyə Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa Birliyi, BMT, Qoşulmama Hərəkatı, Türk Şurası kimi dünyanın bir çox aparıcı və nüfuzlu beynəlxalq təşkilatları və qurumları ilə əməkdaşlığa çağırışlarına verilən müsbət rəylər cənab İlham Əliyevin liderlik keyfiyyətlərinin, zəkasının, siyasi iradəsinin uğurlu göstəricisidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# AÇG və «Şahdəniz»in Azərbaycan iqtisadiyyatına töhfəsi böyükdür

## Bu dəniz yataqlarının karbohidrogenləri gəlir gətirməkdə davam edir

*Əvvəli 1-ci səh.*



AÇG-dən indiyədək əldə olunan hasilatın həcmi bu ilin yanvar ayında 500 milyon tona çatıb. AÇG, həmçinin Azərbaycana ümumilikdə 45 milyard kubmetrdən artıq səmt qazının təmənnasız təhvil verilməsini təmin edib.

1994-cü ilin sentyabr ayında AÇG üzrə müqavilə imzalanarkən tərəfdaşlar bu yataqların təxmini ehtiyatlarının 511 milyon ton olduğunu müəyyən etmişdilər. Lakin zaman bu yataqlar blokunun sərvətinin daha çox olduğunu göstərdi. Hazırda AÇG-nin ehtiyatlarının ən azı 1 milyard ton olduğu bildirilir. Gələcək illərdə, yeni daha yeni texnologiyalar tətbiq edildikcə, bəlkə həmin yataqlar blokundan bundan da çox karbohidrogen hasil etmək mümkün oldu.

2017-ci ilin sentyabr ayında AÇG-nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişin imzalanması da bu amilə əsaslanır. Yeni müqavilə 2049-cu ilin sonunadək davam edəcək və növbəti illər ərzində AÇG-nin ölkəmizə gətirdiyi iqtisadi mənfəətləri maksimuma çatdıracaq.

"Yeni əsrin müqaviləsi" çərçivəsində yeni bir layihənin həyata keçirilməsi nəzərdə tutulur. Bu, AÇG müqavilə sahəsində daha bir platformanın tikintisindən ibarətdir. Beləliklə, keçən ilin aprel ayında AÇG-nin işlənməsinin növbəti mərhələsi olan "Azəri Mərkəzi Şərqi" layihəsinə sanksiya verilib. Bununla da 6 milyard dollar dəyərində olan işlənmə layihəsinin həyata keçirilməsinə başlanıb.

"Azəri Mərkəzi Şərqi" platforması gündəlik 100 min barelədək neft hasil etmək gücündə layihələndirilib. İstismar müddəti ərzində qurğunun 300 milyon barelə qədər əlavə neft hasil edəcəyi gözlənilir. Layihə çərçivəsində ilk hasilatın 2023-cü ildə alınacağı nəzərdə tutulur.

Xatırladaq ki, "Azəri Mərkəzi Şərqi" AÇG-nin 9-cu platforması olacaq. Hazırda yataqda 8 platforma fəaliyyət göstərir. Bunlardan 6-sı hasilat, 2-si isə emal, qazın kompressiyası, suvurma və texnoloji təchizat qurğusudur.

"Şahdəniz" in işlənməsinin birinci mərhələsi çərçivəsində 14, ikinci mərhələsi çərçivəsində isə 2 ildir qaz və kondensat hasil edilir. "Şahdəniz" Azərbaycanı dünyaya həm də qaz ixrac edən ölkə kimi tanıdıb.

Hazırda "Şahdəniz-2" qazı genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri) vasitəsilə TANAP-a (Trans-Anadolu Qaz Boru Kəməri) ötürülür . Qazı Türkiyədə 1900 kilometrə yaxın ərazi boyu daşıyan TANAP artıq TAP-la (Trans-Adriatik Qaz Boru Kəməri) birləşib. Bu ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulan TAP Azərbaycan qazını Avropaya çatdıracaq.

Xatırladaq ki, AÇG-dən və "Şahdəniz"dən hasil edilən karbohidrogenlər platformalardan sualtı xətlər vasitəsilə dünyanın ən böyük neft-qaz terminallarından olan Səngəçal terminalına ötürülür. Buradan isə neft və qaz ixrac marşrutları ilə dünya bazarlarına yola salınır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyev islahat siyasətini kreativ tədbirlərlə zənginləşdirir

## *Azərbaycanın "Smart ölkə"yə çevrilməsi perspektivi gündəmə gəlir*

*Əvvəli 1-ci səh.*

O, həmçinin perspektiv əməkdaşlıq çərçivəsində vahid məlumatlar sisteminin yaradılması istiqamətində görülən işlərin ümumi daxili məhsulun artımına, iş yerlərinin yaradılmasına və innovasiyaların tətbiqinə xidmət edəcəyi barədə məlumat vermişdir.

Onu da qeyd edək ki, CISCO şirkətinin avadanlıqlarından Bakıda iki mühüm beynəlxalq tədbirin təşkilində istifadə edilmişdir. Artıq bu sistem vasitəsi çərçivəsində Azərbaycan Prezidenti ilə bir sıra dövlət başçıları arasında videogörüşlər keçirilmişdir. ABŞ-ı təmsil edən belə bir şirkətlə əməkdaşlığın genişləndirilməsi həmçinin iki dövlətin iqtisadi əlaqələrinin güclənməsinə və qarşılıqlı münasibətlərin dərinləşməsinə xidmət edir. Azərbaycan tərəfi təhsili, kibertəhlükəsizliyi, səhiyyəni, kənd təsərrüfatını və su ehtiyatlarının idarə olunmasını əhatə edən qlobal "Smart ölkə" konsepsiyasını tam dəstəkləyir.

Şirkətin "bir-biri ilə bağlantısı olan məktəblər" və təhsil proqramı üçün təklif etdiyi layihələr də diqqətəlayiqdir. Kibertəhlükəsizlik, ümumi daxili məhsulun artırılması, iş yerlərinin yaradılması məsələlərinin sürətli həllində innovativ texnologiyaların zamanında tətbiqi mühüm rol oynayır.

Azərbaycan Prezidenti videokonfransda ən vacib sahələrdə əməkdaşlığın davam edəcəyini belə vurğulamışdır: "Bilirəm ki, siz kənd təsərrüfatının rəqəmsallaşdırılması ilə bağlı artıq təmasdasınız. Bu sektor hazırkı vəziyyətdə neft qiymətlərinin tənəzzülü ilə aparıcı sektorlardan biri olacaq. Buna görə də kənd təsərrüfatı məşğulluq, ərzaq təhlükəsizliyi və ixrac deməkdir. Gözəçarpan nəticələrə nail olmaq üçün bizim su ehtiyatlarımıza çox ciddi elektron nəzarət sistemimiz olmalıdır. Elə bu yaxınlarda mən Baş Nazirin müavininin rəhbərliyi altında xüsusi dövlət komissiyasının yaradılması ilə bağlı sərəncam imzalamışam. Onlar artıq işə başlayıblar".

Maraqlısı odur ki, bir qədər əvvəl su qıtlığı ilə bağlı problem qaldırılanda dövlət başçısı müvafiq göstərişlər vermiş və sərəncan imzalamışdır. Videokonfransda Prezident İlham Əliyev bu mövzuya təkrar qayıdaraq ölkənin su ehtiyatlarının düzgün qiymətləndirilməsini və balansın elektron idarə edilməsini önə çəkmişdir: "Çünki burada narahatlıq doğuran məsələlərdən biri odur ki, bəzən su ehtiyatlarının paylanılması zamanı yerli icra orqanları bunu qeyri-bərabər şəkildə edirlər və nəticədə müəyyən şirkətlər qrupu əsassız üstünlük əldə edir. Bu ədalətsizlik isə öz növbəsində ciddi çətinliklər yaradır. Bu səbəbdən hesab edirəm ki, bu məsələ də bizim gündəliyimizə əlavə edilə bilər..."

Qay Ditrix su ehtiyatlarının idarə edilməsi sahəsində bir sıra layihə və texnologiyalara malik olduqlarını bildirmiş, sensor texnologiyasının tətbiqi və su ehtiyatları sahəsində qanunvericiliklə bağlı Azərbaycanla əməkdaşlıqda maraqlı olduqlarını diqqətə çatdırmışdır: "Daha bir mövzu "Ağıllı kənd təsərrüfatı"dır. Siz bu sahədə olduqca irəlidəsiniz və Sizin kənd təsərrüfatının inkişafı ilə bağlı baxışınızı reallaşdırmaq üçün müvafiq texnologiyalar artıq mövcuddur".

Azərbaycan Prezidenti İlham Əliyev şirkətin bu sahədəki təcrübəsindən faydalanmağı zəruri sayır. Ölkədə su itkisinin 40 və hətta 50 faiz təşkil etdiyini qeyd edən dövlət başçısı belə deyir: "Biz yalnız su itirmirik, biz həm də torpağa ziyan vururuq, çünki torpaq yuyulur və daha sonra kənd təsərrüfatı üçün yararsız olur. Düşünürəm ki, səylərimizi birləşdirərək və sizin təcrübənizdən faydalanaraq biz məhsuldarlığı artırmaqla böyük uğura nail ola bilərik".

Azərbaycan tərəfi ilə CISCO şirkəti arasında əməkdaşlıq ildən-ilə dərinləşir. "Smart ölkə" ideyası üzərində birgə iş gedəcək, "Ağıllı şəhər" layihəsinin icrası mərhələsi yaxınlaşanda isə koronavirus məsələsi geridə qalacaq, həyatın normal axarı yoluna düşəcək. Göründüyü kimi, perspektivlər nikbindir.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi CISCO ilə əməkdaşlığı davam etdirir, şirkətin bulud platforması və şəbəkə texnologiyalarından istifadə etməklə videokonfrans şəklində mühüm tədbirlərin təşkil edilməsində fəallıq göstərir.

Azərbaycanın dünyanın aparıcı şirkətləri ilə əməkdaşlığının güclənməsi müasirləşməyə və yeni texnologiyaların geniş tətbiqinə imkan verir. Problemlərə baxışların üst-üstə düşməsi səyləri birləşdirməyə, qüvvələri səfərbərliyə almağa və nisbətən qısa müddət ərzində daha böyük işlər görməyə imkan yaradır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# İnsan alverinə qarşı səmərəli tədbirlər həyata keçirilir

Mayın 18-də Milli Məclisin İnsan hüquqları və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirildi. İnsan hüquqları komitəsinin sədri Zahid Orucov iclası açaraq bildirdi ki, bu gün Laçın rayonunun işğalının anım günüdür. Bu hadisə ilə əlaqədar iclas iştirakçıları torpaqlarımız uğrunda həyatını qurban verən şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Zahid Orucov diqqətə çatdırdı ki, iclasda İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı təqdim olunacaq. Komitə sədri məsələ ilə bağlı bir sıra məqamlar barədə fikirlərini açıqladı. Bildirildi ki, Azərbaycanda insan alverinə qarşı hüquqi bazanın yaradılması çərçivəsində sistemli mübarizə tədbirləri 2003-cü ilin 15 may tarixində BMT-nin Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı Konvensiyasının, onu tamamlayan İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırlması haqqında, həmçinin sərhədlərin qanunsuz keçilməsinə dair protokolların təsdiqindən sonra daha da sürətlənib. Belə ki, 2005-ci ildə insan alverinə qarşı mübarizə ilə bağlı qanun qəbul olunub və burada Milli Fəaliyyət Planı yer alıb, Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə üzrə Baş İdarəsi yaradılıb. Azərbaycanda İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinator Fəaliyyət Planının həyata keçirilməsi üzrə məsul şəxsdir.

Qeyd edildi ki, insan alverinə qarşı mübarizə ilə bağlı qanunun müvafiq maddəsinə görə, məcburi əmək, cinsi istismar, köləlik, insan orqanlarının və toxumalarının qanunsuz çıxarılması, qadının surroqat ana kimi istifadə edilməsi, qanunsuz, o cümlədən cinayətkar fəaliyyətə cəlb etmə, habelə insanların digər formada istismar edilməsi insan alverinin müxtəlif formaları kimi töfsiv edilir. Avropa Şurasında İnsan Alveri Əleyhinə Ekspert Qrupu formalaşdırılıb. Təşkilata üzv ölkələrdə bu məsələlərlə bağlı vəziyyətə onun vasitəsi ilə nəzarət olunur. Qurumun mütəxəssisləri hər il ölkələrdə bu məsələləri monitorinq edirlər.

Komitə sədri BMT-nin Ümumdünya İnsan Alveri Hesabatının 142 ölkəni əhatə etdiyini bildirərək, Azərbaycanın beynəlxalq hesabatlarda yerinin yaxşılaşacağına əminliyini ifadə etdi. Eyni zamanda, Azərbaycanda 2019-2023-cü illər üzrə növbəti Fəaliyyət Planının hazırlandığını diqqətə çatdırdı, hesabatla bağlı bir sıra təkliflərini səsləndirdi.

Sonra Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin rəisi Həzi Aslanov məruzə ilə çıxış etdi. Baş İdarənin rəisi bildirdi ki, ölkəmizdə insan alveri cinayətlərinə qarşı mübarizənin səmərəli aparılmasını, qurbanların hüquqlarının müdafiəsi imkanlarının genişləndirilməsini təmin edən mükəmməl qanunvericilik bazası formalaşıb. İnsan alverinə qarşı mübarizədə hökumət tərəfindən də bir sıra mühüm qərarlar qəbul edilib, bu cinayətlərdən zərər çəkmiş şəxslərə ödənilən müavinətin məbləği 400 manatdan 700 manatadək artırılıb.

Ötən il ərzində insan alverinə qarşı mübarizə sahəsində geniş maarifləndirmə işi aparılıb. Respublikanın 55 şəhər və rayonunda, orta ixtisas və ali təhsil müəssisələrində insan alverinə və məcburi əməyə qarşı mübarizəyə dair seminarlar keçirilib. Bununla bağlı Bakı şəhərində geniş ictimaiyyət üçün nəzərdə tutulmuş təşviqat xarakterli videolar, təbliğat materialları paylanılıb, televiziya və radioda, videoportallarda verilişlər yayımlanıb.

Diqqətə çatdırıldı ki, insan alveri ilə mübarizə sahəsində ötən müddət ərzində xarici tərəfdaşlar və təşkilatlarla qarşılıqlı əlaqələrin gücləndirilməsi diqqət mərkəzində saxlanılıb. Daxili İşlər Nazirliyinin 40-a yaxın ölkənin aidiyyəti dövlət strukturları ilə imzaladığı 100-dən çox müqavilə insan alverinin qurbanı olan Azərbaycan vətəndaşlarının digər dövlətlərdə yerinin operativ müəyyən edilməsində, bu cinayətləri törədənlər haqqında məlumatların toplanmasında, razılaşdırılmış tədbirlərin keçirilməsində real nəticələr verməkdədir.

Məlumat verildi ki, məcburi əməyin qarşısının alınması, bu əməllərə şərait yaradan halların aradan qaldırılması istiqamətində də lazımi tədbirlər həyata keçirilir. Aparılan monitorinqlər nəticəsində 120 tikinti obyektində 351 nəfərin əmək müqaviləsi olmadan çalışdığı aşkar edilib. Bununla bağlı ümumilikdə 454.000 manat inzibati cərimə tətbiq edilib. Vurğulandı ki, Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə aparılan sosial islahatlar nəticəsində 2018-ci illə müqayisədə ötən il ölkə üzrə bağlanılan əmək müqavilələrinin sayında 153 min artım qeydə alınıb. Uşaq əməyinin istismarının qarşısının alınması sahəsində görülən tədbirlər çərçivəsində övladlarının təlim-tərbiyəsi ilə bağlı vəzifələri yerinə yetirməyən 180 valideyn barəsində inzibati tənbeh tədbirləri görülüb.

Nəzərə çatdırıldı ki, 2019-cu ildə insan alveri cinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məhkəmə məsuliyyətinə verilməsi sahəsində məqsədyönlü iş aparılıb. Həyata keçirilən tədbirlər nəticəsində 186 insan alveri, o cümlədən 4 məcburi əmək, habelə insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 36 cinayət qeydə alınıb, 10 nəfərdən ibarət 4 cinayətkar qrup zərərsizləşdirilib. Müəyyən edilmiş 91 insan alveri qurbanından 89-u Azərbaycan vətəndaşıdır, 2-i əcnəbidir. Zərərçəkənlərə tibbi, psixoloji, hüquqi yardımlar göstərilib.

İclasda insan alveri ilə bağlı cinayətlərə dair bəzi statistik məlumatlar təqdim edildi.

Tədbirdə çıxış edən deputatlar Hikmət Məmmədov, Razi Nurullayev, Tural Gəncəliyev, Erkin Qədirli, Fəzail Ağamalı, Elşad Mirbəşir oğlu, Tahir Kərimli, Bəhruz Məhərrəmov, Əminə Ağazadə, Vüqar İskəndərov, Nizami Səfərov İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı barədə öz fikirlərini açıqladılar, qeyd və təkliflərini verdilər.

Müzakirələrin sonunda Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin rəisi Həzi Aslanov deputatları maraqlandıran bəzi məqamlara aydınlıq gətirdi.

Deputatlar İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı Milli Məclisin plenar iclasına tövsiyə etdilər.

İclasda Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi rəisinin müavini Samir Zeynalov iştirak edirdilər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Pensiyanın bir növündən başqa növünə keçmə hüququnda məhdudiyyət aradan qaldırılacaq

Pensiya ilə bağlı yeni qanun layihəsində pensiyaçıların maraqları nəzərə alınmaqla, heç bir istisna olmadan pensiyaçının əmək pensiyasının bir növündən başqa növünə keçmə hüququnun təsbit edilməsi nəzərdə tutulur.




Bu barədə AZƏRTAC-a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bildirilib.

Hazırda qüvvədə olan "Əmək pensiyaları haqqında" qanunun 34-cü maddəsinə əsasən, pensiyaçının yaşa görə pensiya növündən əlilliyə görə pensiya növünə keçirilməsi məhdudlaşdırılıb. Yəni, yaşa görə pensiya alan şəxsin əlilliyə görə də pensiya hüququ yarandıqda, o, yaşa görə pensiyadan imtina edib əlilliyə görə pensiyaya çıxa bilməz.

Yeni qanun layihəsində nəzərdə tutulan dəyişiklik bu məhdudiyyəti aradan qaldırmağa yönəldilib. Yəni, hər hansı bir pensiyaçı öz seçiminə uyğun olaraq hüququ olan istədiyi digər pensiya növünə istisna olmadan keçə biləcək.

Bu zaman pensiyaçının ərizəsinə ən geci 10 iş günü müddətində baxılmaqla onun digər pensiya növünə keçirilməsi və həmin pensiyanın hesablanaraq təyin edilməsi təmin olunacaq.

## Elmar Məmmədyarovun ATƏT-in Minsk qrupunun həmsədrləri ilə videokonfrans formatında görüşü olub

Mayın 18-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov ATƏT-in Minsk qrupunun həmsədrləri, İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa) və Endryu Şafer (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik ilə videokonfrans formatında görüş keçirib. Görüşdə, həmçinin Fransa və ABŞ-dan olan həmsədrlərin köməkçiləri iştirak ediblər.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinin cari vəziyyətini, eləcə də qarşıdan gələn aylarda, qlobal pandemiya sonrası atılacaq addımları müzakirə ediblər. Tərəflər pandemiya zəiflədikdən sonra Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə növbəti görüşünün keçirilməsi vaxtının və yerinin müəyyən edilməsi üzrə razılaşıblar.

## Çimərliklərin açılması ilə bağlı yeni qaydalar hazırlanır

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında çimərliklərlə bağlı komissiyanın yaradıldığını və qaydaların hazırlandığını bildirib.

AZƏRTAC xəbər verir ki, Eldar Əzizov hər yerdə sosial məsafə saxlamağın vacibliyini qeyd edib. O deyib ki, bununla bağlı bəzi elektron sistemlərdən istifadə olunacaq. Vətəndaş evdən çıxmamışdan əvvəl yer sifariş edə bilər. Müvafiq proqram hazırlanır. Yaxın günlərdə bu barədə ictimaiyyətə məlumat veriləcək.

Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov isə əlavə edib ki, turizmlə bağlı qaydalar və təlimatlar var. Məsafənin qorunması və digər məlumatlar yazılı şəkildə asılacaq. Konkret şəxslər olacaq ki, qaydalara əməl olunmasına nəzarət edəcəklər. Çimərliklərin özlərinin spesifik qaydaları da ola bilər.

## İki ay ərzində Dənizkənarı Milli Parkda dezinfeksiya işləri mütəmadi şəkildə aparılıb

İki ay ərzində Dənizkənarı Milli Parkda dezinfeksiya işləri mütəmadi şəkildə aparılıb. AZƏRTAC xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında Dənizkənarı Bulvar İdarəsinin rəisi İlqar Mustafayev bildirib.

Bulvarda müxtəlif nadir bitkilərin olduğunu qeyd edən İlqar Mustafayev deyib ki, ötən dövrdə bu bitkilərə də qulluq edilib. Mayın 18-i saat 00.00-dan bulvar açılıb. İnsanlar Dənizkənarı Milli Parkda 10 nəfərdən artıq qruplarda toplaşmamalıdır. İctimai iaşə obyektlərində sosial məsafə gözlənilməlidir. Masaların arasında məsafə 2 metrdən, masalarda insanlar arasında məsafə 1 metrdən az olmamalıdır. Buna nəzarət ediləcək.

İdarə rəisi onu da diqqətə çatdırıb ki, əyləncə, attraksionlar və idman qurğuları, uşaq əyləncə qurğuları fəaliyyət göstərməyəcək.

## *Eldar ƏZİZOV:* "Aparılan dezinfeksiya işlərində 2 min insan iştirak edir"

Bu gün Bakıda ərzaq qıtlığı yoxdur. Bu, görülən tədbirlərin nəticəsidir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində deyib.

Azərbaycan əhalisinin sayına görə ölkəmizdə koronavirusa yoluxma sayının qənaətbəxş olduğunu söyləyən icra başçısı deyib: "Bakıda dezinfeksiya işlərinə xəstəlik aşkar olunmamışdan əvvəl başlanılıb. Şəhər icra hakimiyyətinin balansında 11 min 700 bina var. Küçələr xüsusi maddələrlə yuyulur. Texnika və xüsusi maddələr baxımından çatışmazlıq yoxdur".



Sosial təcrid qaydalarına əməl etməyin vacibliyini diqqətə çatdıran Eldar Əzizov qeyd edib ki, əks halda virusun yayılmasının ikinci dalğası ilə üz-üzə qala bilərik. Müəyyən məhdudiyyətlər aradan qaldırılır, parklar, istirahət mərkəzləri açılır, gələcəkdə çimərliklərin də açılması gözlənilir. Lakin istirahət zamanı da müəyyən olunmuş qaydalara əməl etmək, tibbi maskalardan istifadə etmək, sosial məsafələr saxlamaq mütləqdir.

"Bu gün aparılan işlərin nəticəsidir ki, Bakı təmiz şəhərdir. Bunu yalnız biz demirik, xarici ekspertlər də deyirlər. Aparılan dezinfeksiya işlərində 2 min insan iştirak edir. Bütün liftlər hər gün dezinfeksiya edilir. Mən Mənzil Tikinti Kooperativlərinə müraciət edirəm. Onlar binalarda dezinfeksiya işləri aparmalıdırlar", - deyə Eldar Əzizov vurğulayıb.

## Koronavirusla mübarizədə iştirak edən tibb və qeyri-tibb işçilərinə mart ayı üzrə iş vaxtına mütənasib 11.7 milyon manat müddətli əlavə ödənilib

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarına uyğun olaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən 21462 tibb işçisinə, 2372 qeyri-tibb işçisinə mart ayı üzrə iş vaxtına mütənasib olaraq müddətli əlavə ödənilib.

Dövlət agentliyindən AZƏRTAC-a bildirilib ki, Bakı şəhəri üzrə 145, respublikanın digər şəhər və rayonları üzrə 118 dövlət tibb müəssisəsinin tibb və qeyri-tibb işçilərinə mart ayı üzrə iş vaxtına mütənasib olaraq 11.7 milyon manat müddətli əlavə ödənilib.

Nazirlər Kabinetinin Qərarına uyğun olaraq, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına iş vaxtına mütənasib olaraq müddətli əlavələr aşağıdakı qaydada ödənilib:

1.Tibbi profilaktik tədbirləri həyata keçirən 15113 tibb işçisinə aylıq vəzifə (tarif) maaşının 3 misli məbləğində cəmi 4.9 milyon manat ödənilib.

Agentliyin Maliyyə departamentinin rəhbəri Rasim Həsənov aşağıdakı nümunə ilə hesablamanı izah edir: "Tutalım, poliklinikada çalışan sahə pediatrının 13-cü dərəcə üzrə aylıq vəzifə (tarif) maaşı 406 manatdır. Həkim koronavirus infeksiyası ilə mübarizə tədbirləri üzrə 6 gün işə cəlb olunubsa, deməli, 292 manat 32 qəpik müddətli əlavə almalıdır. 292.32 = ((406 / 25) x 6) x 3. Qeyd edim ki, yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesablanacaq".

Hesablama düsturu: müddətli əlavə = (Vahid Tarif Cədvəli üzrə tarif maaşı/ aylıq iş günlərinin sayı) x işçinin çalışdığı günlərin sayı x müddətli əlavənin misli.

2. Təcili tibbi yardım xidməti göstərən 4967 tibb işçisinə, həmçinin bioloji materialın müayinəsi ilə məşğul olan 378 laboratoriya işçisinə aylıq vəzifə (tarif) maaşının 4 misli məbləğində cəmi 4.7 milyon manat ödənilib.

R.Həsənov aşağıdakı nümunə ilə hesablama qaydasını izah edir: "Tutalım, Təcili və təxirəsalınmaz tibbi yardımda çalışan təcili tibbi yardım həkiminin 13-cü dərəcə üzrə aylıq vəzifə (tarif) maaşı 406 manatdır. Həkim koronavirus infeksiyası ilə mübarizə tədbirləri üzrə 6 gün işə cəlb olunubsa, deməli, 389 manat 76 qəpik müddətli əlavə almalıdır. 389.76 = ((406 / 25) x 6) x 4. Qeyd edək ki, yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesablanacaq".

3. Pasiyentlərə stasionar tibbi xidmət göstərən 1004 tibb işçisinə aylıq vəzifə (tarif) maaşının 5 misli məbləğində cəmi 700 min manat ödənilib.

Maliyyə departamentinin rəhbərinin izahı: "Xəstəxanada çalışan həkim infeksionistin13-cü dərəcə aylıq vəzifə (tarif) maaşı 406 manatdır. Həkim koronavirus infeksiyası ilə mübarizə tədbirləri üzrə 6 gün işə cəlb olunubsa, deməli 487 manat 20 qəpik müddətli əlavə almalıdır. 487.20 = ((406 / 25) x 6) x 5. Qeyd edək ki, yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesablanacaq".

Onu da qeyd edək ki, 2372 qeyri-tibb işçisinə 3-5 misli məbləğində 1.4 milyon manat müddətli əlavə verilib. Nümunə: Təcili və təxirəsalınmaz tibbi yardımda çalışan sürücünün 3-cü dərəcə üzrə aylıq vəzifə (tarif) maaşı 271 manatdır. Sürücü koronavirus infeksiyası ilə mübarizə tədbirləri üzrə 6 gün işə cəlb olunubsa, deməli, 195 manat 12 qəpik müddətli əlavə almalıdır. 195.12 = ((271 / 25) x 6) x 3. Qeyd edək ki, yekun məbləğdən işçi tərəfindən ödənilməli olan əməkhaqqına dair bütün tutulmalar hesablanacaq.

Məlumat üçün bildirək ki, dövlət tibb müəssisələri tərəfindən göndərilən siyahılara uyğun olaraq agentlik tərəfindən aprel ayı üzrə müddətli əlavələr ödəniləcək.

## *İbrahim MƏMMƏDOV:* "Rayonlara gediş-gəlişin və sərhədlərin açılması sanitar-epidemioloji vəziyyətdən asılıdır"



Rayonlara gediş-gəlişin və sərhədlərin açılması sanitar-epidemioloji vəziyyətdən asılıdır. Mütəxəssislər nə zaman hesab edəcəklər ki, gediş-gəliş əhali üçün təhlükəli deyil, o zaman qərar veriləcək.

AZƏRTAC xəbər verir ki, bunu bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Nazirlər Kabineti mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib.

"Şadlıq saraylarının fəaliyyət göstərməsinə gəlincə, bu məsələ də sanitar-epidemioloji vəziyyətdən asılıdır. Biz iyun-iyul aylarında vəziyyətin necə olacağı haqqında əvvəlcədən bir şey deyə bilmərik. Bugünkü vəziyyətə istinadən deyə bilərik ki, şadlıq evləri fəaliyyət göstərmir və hələ açılması da gözlənilmir. Qarşıdakı günlərdə, növbəti həftələr ərzində sanitar-epidemioloji vəziyyətdən asılı olaraq müzakirə olunub, müvafiq qərar veriləcək", - deyə İ.Məmmədov bildirib.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bağçaların açılmasının da epidemioloji vəziyyətdən asılı olduğunu deyib: "Mütəxəssislər, Qərargah üzvləri bununla bağlı qərar verəndən sonra bağçalar açıla bilər. Düşünürəm ki, yaxın zamanlarda bu məsələyə baxılmayacaq".

## Bu gün xüsusi karantin rejimindən çıxışın yeni mərhələsi başlayıb

Bu gün saat 00:00-dan etibarən xüsusi karantin rejimindən çıxışın yeni mərhələsi başlayıb. Paytaxtda ictimai nəqliyyat, parklar, bulvarlarla bağlı yeni həyat başlayır.

AZƏRTAC xəbər verir ki, bunu bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Nazirlər Kabineti mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov deyib.

Onun sözlərinə görə, indiyə qədər Bakıda xüsusi karantin rejimi, karantinlə bağlı işlər görülüb: "Bu gündən Bakıda yaranan rejimlə bağlı əhalinin məlumatlandırılmasına ehtiyac var".

## Bayram günlərində maksimum dərəcədə evdə qalmaq məqsədəuyğundur

Bayram günlərində vətəndaşlara maksimum dərəcədə evdə qalmaq tövsiyə olunur.

AZƏRTAC xəbər verir ki, bunu mayın 18-də Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi mətbuat konfransında Nazirlər Kabineti mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib.

İdman zallarının açılmaması məsələsinə toxunan İ.Məmmədov bildirib ki, yumşalma prosesi mərhələli şəkildə olmalıdır və hər yer eyni vaxtda açıla bilməz.

Xatırladaq ki, Ramazan bayramı və Respublika Günü ilə əlaqədar mayın 23-dən 30-na kimi Azərbaycanda 8 gün qeyri-iş günü olacaq.

# Kafe və restoranlar yeni qaydalarla işə başlayır

## *İctimai iaşə məkanlarında koronavirusun yayılmaması üçün metodiki göstərişlərə əməl olunması şərtdir*

Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı Azərbaycandakı sanitar-epidemioloji vəziyyət, ölkə əhalisi arasında virusa yoluxanların ümumi sayı və xəstələrin sağalma dinamikası nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində tətbiq edilən məhdudiyyətlərin daha bir qismi yumşaldıldı.

Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, mayın 18-dən etibarən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə yerində xidmət saat 08:00-dan 18:00-dək bərpa olunur. Lakin pandemiya dövründə bütün bu məkanlarda xidmətlər Operativ Qərargah tərəfindən təqdim olunan müvafiq sanitar-epidemioloji qaydalara və metodiki göstərişlərə uyğun həyata keçirilməlidir.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) "İctimai iaşə müəssisələrində koronavirus infeksiyasının profilaktikasına dair metodiki göstərişlər" hazırlayıb.

Metodiki göstərişlərə əsasən, kafe və restoranlarda yeməklər hazırlanarkən bişirilmə temperaturuna riayət edilməli, lazımi temperatur dərəcəsinə qədər bişirilməmiş yeməklərlə qidalanmadan qaçınılmalıdır. Xam məhsullar istifadədən əvvəl təmizlənməli, yemək dəstlərinin, mətbəx avadanlıqlarının, çirkli səthlərin yuyulub təmizlənməsi prosedurları barədə mütəmadi təlimat verilməlidir. Müəssisədə təmizlik və dezinfeksiya işlərinin aparılması üzrə məsul şəxs təyin edilməli, bu şəxs təmizlik və dezinfeksiya işlərinin dövriliyi, tətbiqinə icazə verilən dezinfeksiyaedici maddələrdən düzgün istifadə qaydaları, həmçinin dezinfeksiyanın aparılması qaydaları barədə məlumatlarla təmin olunmalıdır.

Sanitariya-gigiyenik qaydalara əsasən, müəssisələrdə sanitar-məişət otaqları (sanitar qovşağı, soyunub-geyinmə otağı və s.) işlək və təmiz vəziyyətdə saxlanmalıdır. Müəssisə axar isti və soyuq su təchizatı, təmizlik vasitələri və dezinfeksiyaedici maddələrlə daimi olaraq təmin edilməlidir. Dezinfeksiyaedicidən istifadə etmək üçün müəssisədə qurğular, birdəfəlik istifadə üçün salfetlər, yetərli sayda tibbi maska və əlcəklər olmalıdır. İstifadə edilmiş tibbi maskaların atılması üçün ayrıca qapalı torbalar qoyulmalıdır. Mətbəxdə, heyət otaqlarında, sanitar qovşaqlarında və xidmət zallarında mütəmadi dezinfeksiya işləri aparılmalıdır. Qida qəbulu zallarında oturacaqların ara məsafəsi eyni masa arxasında 1 metrdən, masalararası məsafələr isə 2 metrdən az olmamalıdır.

### Təmizlik və dezinfeksiya işləri

Restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında həyata keçirilən təmizlik-dezinfeksiya işləri iş saatı ərzində mütəmadi olaraq və əsasən işlək sahələrdə (giriş-çıxış, kassa və s.), iş saatlarından sonra isə bütün sahələrdə həyata keçirilməlidir. Dezinfeksiya işləri başa çatdıqdan sonra həmin sahə havalandırılmalıdır. Dezinfeksiyaedici maddələrin istifadə edilmə təlimatında qeyd edilən səth üzərində tövsiyə olunan qalma müddətinə ciddi riayət edilməlidir.

Təmizlik-dezinfeksiya işləri həyata keçirilərkən aşağıdakı ardıcıllığa riayət edilməlidir:

- Mexaniki təmizlik: quru çirklər və tullantılar səthlərdən və məkandan uzaqlaşdırılır;
- Təmizləmə: isti su və lazımi hallarda yuyucu vasitələrdən istifadə etməklə həyata keçirilir;
- Durulama: istifadə edilmiş yuyucu vasitə qalıqlarının səthdən tamamilə uzaqlaşdırılması məqsədilə isti sudan istifadə edilir;
- Dezinfeksiya: istifadəsinə icazə verilən dezinfeksiyaedici maddələr istifadə təlimatına uyğun olaraq tətbiq edilir;
- Dezinfeksiyadan sonra durulama: bu mərhələdə içmək üçün yararlı sudan istifadə edilir.

QEYD: qida ilə təmasda olan səthlərin dezinfeksiyasından sonra su ilə durulanması mütləqdir.



### Dezinfeksiya edilməsi vacib olan sahələr və tövsiyə edilən dezinfeksiya maddələri

- Giriş-çıxışlardakı ayaqaltlıqlar (xlor tərkibli məhlul və ya digər);
- Qapı və qapı tutacaqları (spirt tərkibli məhlul və ya digər);
- Müştərilərin şəxsi əşyalarının saxlanılması üçün nəzərdə tutulan dolablar və onların tutacaqları (spirt tərkibli məhlul və ya digər);
- Məhsulların saxlandığı rəflər, stellajlar, daşındığı araba və səbətlər (spirt tərkibli məhlul və ya digər);
- Çoxmərtəbəli müəssisələrdəki eskalatorlar və onların tutacaqları, liftlər (spirt tərkibli məhlul və ya digər);
- Döşəmələr (xlor tərkibli məhlul və ya digər);
- Soyuducuların tutacaqları (spirt tərkibli məhlul və ya digər);
- Soyunub-geyinmə otaqları (xlor tərkibli məhlul və ya digər);
- Sanitar qovşaqları (xlor tərkibli məhlul və ya digər);
- Anbarlar (xlor tərkibli məhlul və ya digər);
- Tullantıların yığıldığı sahələr (xlor tərkibli məhlul və ya digər);
- Tullantı qabları (spirt tərkibli məhlul və ya digər);
- Ödəniş terminalları (spirt tərkibli məhlul və ya digər);
- Kassada yerləşən konveyerlər (spirt tərkibli məhlul və ya digər).

### İşçi heyətinin şəxsi gigiyenası

İşçi heyət dəyişəkli təmiz iş geyimi ilə, həmçinin gün ərzində bir çox insanla təmasda olmaları nəzərə alınaraq maska, əlcək (ofisiant heyəti istisna olmaqla), dezinfeksiyaedici məhlul və lazımi hallarda digər gigiyenik vasitələrlə təmin edilməlidir. Şəxsi gigiyena qaydalarına riayət olunmalı, işə başlamazdan, qida məhsulları ilə təmasdan öncə, çiy qida məhsulunun emalı, qablaşdırılması və satışa hazırlanmasından, tullantılarla təmasdan, təmizlik işlərindən, sanitar qovşaqdan istifadədən, asqırma və öskürmədən, pulla təmasdan, siqaret çəkdikdən sonra işçilərin əllərini təmiz yumasına və ya dezinfeksiyasına nəzarət edilməlidir. Qida məhsulları ilə təmas edərkən saçları qapalı saxlayan baş örtükləri və əlcəklərdən istifadə olunmalıdır. Əlcəklər çirkləndikdə və tamlığı pozulduqda, həmçinin iş növbələri arasında dəyişdirilməlidir. İşçi heyətin əllərində istənilən kəsik, açıq, qapalı yaralar mütləq su keçirməyən sarğı ilə örtülməli, bununla bağlı tibb müəssisəsinə dərhal müraciət olunmalıdır.

### İşçi heyətin müayinəsi

- İş zamanı özündə COVID-19-a spesifik olan əlamət(ləri) hiss edən işçi (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) dərhal işini dayandırmalı, tibbi maska ilə təmin olunaraq qapalı otaqda izolyasiya edilməlidir. Həmin şəxsə tibbi xidmətin göstərilməsi üçün 103 - TTTY-ə müraciət edilməlidir;
- İşə gəlməzdən əvvəl özündə COVID-19-a spesifik olan əlamət(ləri) hiss edən işçi (qızdırma, quru öskürək, nəfəs darlığı, ishal və s.) rəhbərinə xəbər verərək evdə izolyasiya olunmalıdır və tibbi xidmətin təmin olunması məqsədi ilə 103 - TTTY-ə müraciət etməlidir;
- Xəstəlik əlaməti olan işçinin iş yeri dezinfeksiya edilməlidir;
- Həmin işçidə laborator üsul ilə COVID-19 təsdiqləndiyi halda, onunla sıx təmasda olan əməkdaşlardan test götürülməli və cavabları aşkarlanana qədər onlar evdə izolyasiya olunmalıdır.

### İş geyimi ilə əlaqədar gigiyenik qaydalar

İşə başlamazdan əvvəl üst paltarı, ayaqqabı, şəxsi əşyalar qarderoba yerləşdirilməlidir. İş və şəxsi geyimlər müxtəlif dolablarda saxlanılmalıdır. İşə başlamazdan əvvəl əllər sabunla təmiz yuyulmalı, təmiz işçi forması geyinilməli, saçlar örtük altında yığılmalı və ya xüsusi tor materialdan hazırlanmış başlıqlardan istifadə edilməlidir. İş zamanı təmiz paltarda olmalı, çirkləndikdə dəyişdirilməlidir. Sanitar qovşağa getdikdə önlük, başlıq çıxarılmalı, əllər sabunla təmiz yuyulduqdan sonra təkrar geyinilməlidir. İşçi formasında məkandan kənara çıxmaq qadağandır.

### Əllərin gigiyenasına dair tövsiyələr

- Əllərinizi axar su ilə isladın və sabunu əllərinizə sürtün;
- Əllərinizi sabunla birlikdə ovuşdurun. Barmaqların və dırnaqların arasını yaxşı sabunlayın;
- Sabunlu əllərinizi ən azı 20 saniyə ovuşdurun;
- Əllərinizi axar suyun altında mükəmməl durulayın;
- Əllərinizi təmiz salfetlərlə qurulayın;
- Sabun və ya su istifadəsi mümkün olmadıqda, etanol (spirt) tərkibli dezinfeksiyaedici məhlullardan istifadə edin.

### Dırnaqların gigiyenası

- Dırnaqlar qısa saxlanmalı və tez-tez kəsilməlidir. Hər dəfə əllər yuyulmazdan öncə dırnaqların altı sabun və su ilə (və ya dırnaq üçün fırça ilə) təmiz yuyulmalıdır. İstifadədən öncə dırnağa qulluq vasitələri təmizlənməlidir. Dırnaqların dişlənməsi yolverilməzdir. Kutikula qatının zədələnməsi arzuolunmazdır, çünki kutikula infeksiyanın qarşısını almaq üçün baryer rolunu oynayır.

### Tibbi maskalardan ümumi istifadə qaydaları

- Maskalar ağız və burun nahiyəsini səliqəli örtməklə, üz və maska arasındakı boşluqları minimuma endirmək şərti ilə taxılmalıdır;
- İstifadə zamanı maskanın ağızla təmasda olan hissəsinə toxunmaq olmaz;
- Maska çıxarılan zaman müvafiq texnikaya əməl edilməlidir (maskanın ön hissəsinə toxunmaq olmaz, arxa hissəsindəki ipləri vasitəsilə çıxarılmalıdır);
- Maskanı çıxardıqdan sonra əllər spirtlə təmizlənməli, yaxud sabun və su ilə təmiz yuyulmalıdır;
- Maska çirkləndikdə və ya nəmləndikdə dəyişdirilməsi vacibdir;
- Birdəfəlik maskalardan təkrar istifadə edilməsi qəti qadağandır;
- Birdəfəlik maskalar istifadə olunduqdan sonra tibbi tullantı kimi ləğv edilməlidir.

TƏBİB-in hazırladığı bu qaydalara riayət etməklə, məsuliyyətli vətəndaş olaraq özümüzü və ətrafdakıları COVID-19 infeksiyasından qoruya bilərik.

***Xəyalə MURADLI, "Azərbaycan"***

# Prokurorluq orqanlarının kadr korpusunun komplektləşdirilməsi işi davam etdirilir



Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluq orqanlarında islahatların dərinləşdirilməsi, o cümlədən kadrlar işinin səmərəliliyinin artırılması məqsədilə işlər davam etdirilir. Xəbər verildiyi kimi, Baş Prokurorluğun Maddi-texniki təminat şöbəsinin rəisi Niyaz Məmişov, Xətai rayon prokuroru Yusif İldırımzadə, Sabunçu rayon prokuroru Ceyhun Şirinov, Nəsimi rayon prokuroru Salman Məmmədli, Qəbələ rayon prokuroru Məqsəd Orucov, Yevlax rayon prokuroru Elxan Pənahov "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq prokurorluqda qulluqda olmanın yaş həddinə çatdıqlarına görə Baş prokuror Kamran Əliyevin imzaladığı müvafiq əmrlərlə tutduqları vəzifədən azad edilməklə prokurorluq orqanlarında qulluq keçmələrinə xitam verilib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, prokurorluq orqanlarında səmərəli fəaliyyətlərinə görə Azərbaycan Prokurorluğunun Fəxri fərmanı ilə təltif edilən həmin prokurorluq işçiləri Baş Prokurorluğa dəvət olunublar. Onlara Fəxri fərmanlar təqdim edilib.

Bu məqsədlə keçirilən tədbirdə Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarında uzunmüddətli peşəkar fəaliyyətlərinə görə onlara təşəkkürünü bildirib.

Səmimi görüşə görə minnətdarlıqlarını bildirən sabiq prokurorluq işçiləri fəaliyyətlərinə verilən yüksək qiymətə görə dövlət başçısına və Baş Prokurorluğun rəhbərliyinə təşəkkür edərək xidmət illəri ərzində qazandıqları təcrübəni prokurorluğun gənc əməkdaşlarından əsirgəməyəcəklərini ifadə ediblər.

Prokurorluq orqanlarında fəaliyyətin səmərəliliyini təmin etmək məqsədilə kadr islahatları aparılıb. Belə ki, Baş prokurorun imzaladığı müvafiq əmrlərlə Baş prokurorun böyük köməkçiləri Toğrul Muxtarov, Namiq Məmmədov, köməkçiləri Natiq Eyvazov, Fərid Dadaşov, Elnur Eyvazov və Elvin Bəşirli tutduqları vəzifədən azad ediliblər. Toğrul Muxtarov Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini, Natiq Eyvazov Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin İttihamın təşkili və təhlili şöbəsinin rəisi, Namiq Məmmədov Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru, Fərid Dadaşov Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin prokuroru, Elnur Eyvazov Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin böyük prokuror-metodisti, Elvin Bəşirli isə Yasamal rayon prokurorunun böyük köməkçisi vəzifələrinə təyin olunublar.

Prokurorluq orqanlarının kadr korpusunun peşəkarlıq və mənəvi keyfiyyətlərinə görə işçilərlə komplektləşdirilməsi istiqamətində işlər bundan sonra da davam etdiriləcək.

# Azərbaycan Ordusu genişmiqyaslı əməliyyat-taktiki təlimlərinə başlayıb

Qoşunların 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusu genişmiqyaslı əməliyyat-taktiki təlimlərinə başlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərdə döyüş hazırlığı, əməliyyatların planlaşdırılması və hərtərəfli təminatı, müxtəlif qoşun növləri və qisimlərinin idarəetmə orqanlarının qarşılıqlı əlaqəsi, həmçinin təlimlərin şərtlərinə uyğun olaraq yaradılan zərbə qruplaşmalarının atəş və manevr imkanları yoxlanılacaq.

On min nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunan təlimlər mayın 22-dək davam edəcək.

* * *

Genişmiqyaslı əməliyyat-taktiki təlimlərin planına əsasən həyəcan siqnalı ilə qaldırılan qoşunlar, komanda idarəetmə məntəqələri, döyüş və ehtiyat hərbi hissələri əməliyyat təyinatı rayonlarına çıxarılır. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qoşunların yerdəyişməsi tələblərə uyğun olaraq gizli və operativ şəkildə həyata keçirilir. Şəxsi heyətin və hərbi texnikanın bütün hərəkəti komendant xidməti tərəfindən tənzimlənir.

# Azərbaycan Ordusunun genişmiqyaslı təlimlərinə əməliyyat-taktiki raket kompleksləri cəlb edilib





Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin cəlb olunması ilə keçirilən genişmiqyaslı təlimləri davam edir. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin məqsədinə uyğun olaraq, raket-artilleriya bölmələri daimi dislokasiya məntəqələrini "Həyəcan" siqnalı ilə tərk edərək təyin olunan marşrutlarla hərəkət edirlər.

# Milliləşmiş adət-ənənəmiz: *Ramazan bayramı*

İnsanın mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli-mənəvi dəyərlər sisteminə malikdir. Milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Bu dəyərləri qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur.



Bu yazıda milli mədəniyyətimizin zənginliyindən, xalqımızın nə qədər qədim köklərə malik olmasından xəbər verən adət və ənənələrdən danışmaq istərdik. Bayram adət-ənənələri, toy, yas mərasimləri, islam dininin bəşəri hissləri təbliğ edən dəyərləri xalqımızın milli-mənəvi simasının aynası hesab edilir. Adət və ənənələrin milli mənəvi dəyərlər sistemində oynadığı əvəzsiz rollardan biri hər bir ənənənin müəyyən əxlaqi məna daşıması ilə bağlıdır. Belə ki, adət və ənənələrimiz hər bir insan nəslinin yaratdığı əxlaqi dəyərləri qoruyub, yeni nəslə çatdırmaq vasitəsi kimi çıxış edir.

Əgər biz adət və ənənələrimizə nəzər salsaq görərik ki, onların arasında əxlaqa, tərbiyəyə, mədəniyyətə zidd olan, özündə mənfi xüsusiyyətləri ehtiva edən heç bir məqam yoxdur. Böyüyə hörmət, kiçiyə mərhəmət, bayram günlərində qonaq qəbul etmək, hədiyyə vermək, küsənləri barışdırmaq, kədərli və çətin günlərdə dərdi bölüşmək, yardımlaşmaq və s. kimi humanist dəyərlərlə zəngin olan xalqımız qədimdən bəri bu dəyərləri nəsildən-nəslə ötürərək qoruyub saxlamışdır.

Azərbaycan özünün milli adət-ənənələrini qorumaqla yanaşı, əxlaqi dəyərlərə söykənən bir sıra digər mədəniyyətlərə də qucaq açmış, zaman-zaman onları özününküləşdirmiş, daha dəqiq desək, milliləşdirmişdir. Belə ənənələrdən biri islam sivilizasiyasında xüsusi hörmətlə qarşılanan, özündə böyük bir mədəniyyətin bütün incəliklərini əks etdirən ramazan ayı və bu ayda oruc ibadətinin həyata keçirilməsidir.

Müqəddəs ramazan ayında müsəlmanlar Allah qarşısında vicdani borclarını daha dolğun ödəmək fürsəti əldə edir, mənəvi zənginliyin və əxlaqi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. Ramazan ayı insanların ruhən təmizləndiyi, uca yaradana yaxınlaşdığı, birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin yaşandığı aydır. Ölkəmizdə islam mədəniyyətinin yayıldığı dövrlərdən bugünədək böyük şövqlə qeyd edilən Ramazan bayramı çar Rusiyası və SSRİ dövründə xalqımıza unutdurulmağa çalışılsa da, Azərbaycan müstəqillik əldə etdikdən sonra dini bayramlar yenidən heç bir qadağalar olmadan böyük şövqlə qeyd edilməyə başladı.

Milli-mənəvi dəyərlərimizin qoruyucusu Ümummilli Lider Heydər Əliyev məscidlərdə keçirilən Ramazan bayramı tədbirlərində özü şəxsən iştirak edir və geniş nitq söyləyirdi. Ulu Öndər deyirdi: "Ramazan ayı cəmiyyətimizdə həmrəyliyin, dini-mənəvi birliyin möhkəmləndirilməsi işinə xidmət edən, hər bir müsəlmanın, adət-ənənələrimizə riayət edən hər bir insanın qəlbində olan bayramdır. Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır".

Ulu Öndərin milli-mənəvi və dini dəyərlərin qorunması istiqamətində müəyyənləşdirdiyi siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, hazırda Azərbaycan dünyanın ən tolerant ölkəsidir və ölkəmizdə din-dövlət münasibətləri çox yüksək səviyyədədir. Dövlət başçısı ölkəmizdə mənəvi dəyərlərin qorunmasına xüsusi diqqət göstərildiyini bildirərək deyib: "Azərbaycan müasir dövlətdir, dünyəvi dövlətdir. Eyni zamanda öz milli və dini ənənələrinə sadiq olan dövlətdir. İslam dəyərləri bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir və müqəddəs ramazan ayı bütün dövrlərdə Azərbaycan xalqının qəlbində yaşamışdır. Azərbaycan o ölkədir ki, burada bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bu, bizim böyük sərvətimizdir".

Qəlbləri ilahi hikmətlə nurlandıran Ramazan bayramı insanları sülhə, əmin-amanlığa və həmrəyliyə dəvət edir, cəmiyyətimizdə nəcib əməllərin və savab işlərin təntənəsinə yol açır. Bütün həmvətənlərimizin Ramazan bayramı mübarək olsun! Allah tutulan orucları, edilən ibadət və duaları qəbul etsin!

***Vüsalə FƏTULLAYEVA,***
***Mənəvi Dəyərlərin Təbliği Fondunun könüllüsü***


## B İ L D İ R İ Ş

### Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən MMC-də 2019-cu il üçün illik maliyyə-təsərrüfat fəaliyyətinin auditi xidmətinin satın alınması üçün kotirovka sorğusu keçirir

Kotirovka sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş və imzalanmış şəkildə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower" də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65).

İddiaçılar kotirovka sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kotirovka sorğusunda iştirak etmək üçün müraciət;
- iddiaçının tam adı, təşkilati hüquqi forması, təsdiqlənmiş nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanına təqdim edilmiş maliyyə hesabatının surəti;
- maliyyə imkanlarının, habelə ödəmə qabiliyyətinin olması barədə məlumat;
- iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olmasını təsdiq edən sənəd (əmr, təsisçilərin yığıncağının qərarı və s.);
- Azərbaycan Respublikasında ən azı 10 il daimi fəaliyyətə və müvafiq iş təcrübəsinə malik olması;
- Azərbaycan Respublikasının iri dövlət qurumlarının maliyyə auditinin keçirilməsində təcrübəyə malik olması;
- Azərbaycanda dövlət büdcəsindən maliyyələşən təşkilatlarla müvafiq iş təcrübəsinə malik olması;
- beynəlxalq səviyyədə tanınmış və reytinq cədvəlində böyük 10-luqda yer alan audit qrupuna üzv olması;
- şirkətin əmək müqaviləsi əsasında çalışan işçi heyətinin ən az 30 nəfər olması;
- "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin maliyyə hesabatlarının auditində iştirak edəcək işçi heyətinin audit xidmətlərinin göstərilməsi üzrə müvafiq təcrübələrinin olması (müvafiq sənaye parkları və texnologiya sahəsində BMHS əsasında hazırlanmış maliyyə hesabatlarının auditi sahəsində təcrübə);
- işçi heyəti, eləcə də müvafiq sahədə peşəkarlığı olan işçi heyəti barədə məlumatın verilməsi, onların peşəkarlığını təsdiq edən sertifikat, diplom və digər təsdiqedici sənədlərin surətinin təqdim edilməsi, maliyyə hesabatlarının auditində iştirak edəcək işçi heyətinin tərkibinə ən az 2 ACCA və/və ya CPA kvalifikasiya proqramlarına daxil olan bütün imtahanları uğurla tamamlamış və sertifikatlara sahib olan peşəkar auditorların daxil edilməsi;
- Azərbaycan Respublikasının vergi qanunvericiliyi üzrə təcrübə;
- tələb olunan digər zəruri sənədlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Kotirovka sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 22 may 2020-ci il saat 18:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 31 may 2020-ci il saat 12:00-da Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower"də yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Şəki Acınohur Qış Otlaqlarının Su Təminatı Sistemləri İstismarı İdarəsi tərəfindən 15 fevral 2020-ci il tarixdə "Azərbaycan" qəzetində dərc olunmuş 2020-ci il üçün "Cari təmir işlərində istifadə ediləcək tikinti materialları və nəqliyyat vasitələrinə ehtiyat hissələri"nin satın alınması üzrə tenderin qalibi "Təkamül" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur.

Həmin müəssisə ilə 07 may 2020-ci il tarixli, 103857,70 (bir yüz üç min səkkiz yüz əlli yeddi manat 70 qəpik) manat miqdarında 01 №-li Satınalma müqaviləsi bağlanılmış və sistemə yüklənmişdir.

***Tender komissiyası***



## Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsi Çamaşıryuma maşınlarının satın alınması üzrə büdcədənkənar vəsait hesabına keçiriləcək elektron tenderdə iştirak etmək üçün

## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba "ASAN ödəniş" vasitəsilə köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: -71 (yetmiş bir) manat**
**VÖEN: 2701171541**
**Bank: Kapital Bank ASC Mingəçevir filialı**
**Kod: 200297**
**VÖEN: 9900003611**
**M/hesab: AZ37NABZ01350100000000001944**
**Hesab: AZ15AIIB38060019440133314129**
**S.W.I.F.T: AIIBAZ2X**
**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar pr. 12**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25.06.2020-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatını isə 08.07.2020-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 09.07.2020-ci il saat 14:00-da açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılacaqdır.*

***Tender komissiyası***



## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 - "Bakı Telefon Rabitəsi" MMC nin xidməti ərazisində EATS-lərdə enerji dayanıqlığını təmin etmək üçün dizel generatorların satın alınması**

**LOT 2 - Stansiya akkumulyatorları və UPS-lərin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**LOT 1. 600 (altı yüz) manat (ƏDV daxil)**
**LOT 2. 400 (dörd yüz) manat (ƏDV daxil)**
iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər 16 iyun 2020-ci il saat 17:00-dək aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını 23 iyun 2020-ci il saat 17:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri 24 iyun 2020-ci il saat 11:00-da dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada **etender@gov.az** dövlət satınalmalarının vahid internet Portalında aparılır.

***Tender komissiyası***

## Rəsul Rza - 110

Azərbaycanda XX əsrə qədər də sərbəst şeirin müəyyən ənənəsi mövcud olmuşdur. Məşhur “Kitabi-Dədə Qorqud” dastanlarında nəinki sərbəst, hətta vəznli sərbəst şeir nümunələri də vardır. Sonrakı bütün dövrlər ərzində şeir həmişə zaman-zaman mövcud qəlibləri yumşaltmaq, möhkəmlənmiş normaları dəyişmək, qırmaq, azad və sərbəst olmaq proseslərini yaşamışdır. Orta əsrlərdə zəncirvari əruz şeiri mühitində yanaşı olaraq heca vəzninin ritmlərinin artması da şeirin sərbəstləşmə uğrunda daxili mübarizəsinin konkret əməli göstəricisidir. Fikrimcə, XX əsrdə sərbəst şeir mərhələsinin başlanması Azərbaycan poeziyasında əsrlər uzunu gedən şeirdaxili sərbəstləşmə proseslərinin məntiqi nəticəsi idi. Sərbəst şeirin Azərbaycan ədəbiyyatında xüsusi bir inkişaf mərhələsi səviyyəsinə çevrilməsində isə Xalq şairi Rəsul Rzanın xidmətləri müasiri olmuş və sərbəst şeirlər yazmış şairlərin hamısından qat-qat çoxdur. Rəsul Rza (1910-1981) yeni epoxada Azərbaycan sərbəst şeir məktəbini yaratmış qüdrətli sənətkardır. Son yüzillikdə sərbəst şeir yazanlar çox olsa da, onlardan heç biri Rəsul Rza səviyyəsinə çata bilməmişlər. Görkəmli Xalq şairi Rəsul Rza Azərbaycan ədəbiyyatında sərbəst şeirin zirvəsində dayanır. Rəsul Rza Azərbaycan sərbəst şeir məktəbinin banisidir.



# Milli sərbəst şeirin uvertürası

Rəsul Rza əsrlərdən qırıq-qırıq sızıb gələn ənənələri böyük sürətlə inkişaf etdirərək, sərbəst şeiri XX əsr Azərbaycan poeziyasında qanuniləşdirmək missiyasını böyük şərəflə həyata keçirmişdir. Məhz Rəsul Rzanın böyük yaradıcı dühasının simasında sərbəst şeir Azərbaycan ədəbiyyatının həmişəlik ədəbi sərvətinə çevrilmişdir. Xalq şairi Rəsul Rza Azərbaycan sərbəst şeirinin atasıdır. Onun sərbəst şeirləri Azərbaycan ədəbiyyatına geniş fikir və düşüncə sərbəstliyi gətirmiş, lirikanın poetik formanın bəzi formal tələblərindən xilas olmasına imkan yaratmışdır. Sərbəst adlanmasına baxmayaraq, Rəsul Rzanın poeziyasında şeir texnologiyası üçün zəruri olan şərtlərə yaradıcı şəkildə əməl olunmuşdur. Bu mənada Rəsul Rzanın sərbəst şeirləri özünəməxsus yüksək sənətkarlıq xüsusiyyətlərinə malik olan qiymətli poetik nümunələrdir. Sənətkarın sərbəst şeirləri ilə Azərbaycan sərbəst şeiri özünün inkişafının ən yüksək səviyyəsinə çatmışdır. Azərbaycan xalqının tarixi taleyi və XX əsr boyu çətin həyatın real fəlsəfəsi Rəsul Rzanın poeziyasının nəbzində döyünür.

Böyük sənətkarın şeirlərində bir qayda olaraq, sərbəst şəkildə olsa da, qafiyə iştirak edir və artıq sözə yol verilmir. Onun yaradıcılığında “ağ şeir” nümunəsi də yox dərəcəsindədir. Xalq şairinin sərbəst şeirləri ciddi vəzn ölçüləri olmayan, misralarında obrazlı fikirlər ifadə edilən ictimai məzmunlu poetik örnəklərdir. Məhəbbət mövzusunda yazılmış şeirləri qiymətləndirilməklə yanaşı, Rəsul Rza poeziyasında ictimai fikrin, vətəndaşlıq mövqeyinin aparıcılıq təşkil etdiyi xüsusi qeyd edilməlidir. Rəsul Rzanın adı çəkiləndə, ilk növbədə, Azərbaycan ədəbiyyatının ciddi vətəndaş sözü yada düşür. Sovet dövrünün mövcud çətinliklərinə baxmayaraq, şair ədəbiyyatda Azərbaycanın sözünü demək vəzifəsini yerinə yetirməyi bacarmışdır.

Vətənin qeyrətini çəkməyi və şöhrətini yaşatmağı əsas vəzifə hesab edən sənətkar öz kökü ilə “bu torpağa” - Azərbaycana bağlı olduğunu, məğrur dayanmağın məsuliyyətini dərindən bildiyini bəyan etmişdir. Rəsul Rzanın “Mən torpağam” şeiri vətən torpağı və insan haqqında mənalı poetik himndir. Rəsul Rza vətən və övlad münasibətlərini məsuliyyətli və qürurlu poeziyasının ruhunu və ritmini bütün dərinliyi ilə hiss edərək orijinal bədii vasitələrlə canlandırmışdır:

*Mən Vətənin qoynundayam,*
*Vətən mənim qoynumdadır.*
*Həm qeyrəti,*
*Həm qayğısı,*
*Həm şöhrəti -*
*Böyük borcu*
*Boynumdadır!*
*Boynumdadır!*

Zəngin neft ölkəsi Azərbaycanın sərvətlərinin özününkü olmaması, Sovetlər İttifaqının paytaxtında Nizami Gəncəviyə heykəl qoyulmaması, ölkəsində nahaq və qanlı repressiya vahimələrinin yaşanması, ana dilinin, ərazi bütövlüyünün qorunması kimi vətəndaşlıq cəsarəti tələb edən problemlər Rəsul Rzanın əsərlərində özünün dərin əks-sədasını tapmışdır. Bu baxımdan şairin yaradıcılığında xüsusi yer tutan əsərlər silsiləsini nümunə göstərmək olar.

“Qızılgül olmayaydı” poeması Mikayıl Müşfiqə böyük ehtiram, 37-ci ilə acı bir rekviyemdir. Əsərin yazıldığı 1956-1960-cı illərdə bu mövzu “qadağandır” qrifi ilə xüsusi şəkildə nəzarət altında olan ciddi məsələlərdən biri idi. “Babək” poeması Azərbaycan xalqının arxa plana keçirilmiş qəhrəmanlığının yenidən müasir düşüncənin “gündəminə” gətirilməsi mənasını daşıyırdı. Poemanın yazıldığı 1977-ci ildə ölkəmizdə yaradılmış milli-tarixi yaddaşa qayıdış prosesinin imkanlarından istifadə edilərək diqqət mərkəzinə çəkilən Babək mövzusu düşünülmüş bədii vasitələrlə milli azadlıq məsələsinin ana xətti kimi mənalandırılmışdır:

*...Qarşıda, gələcəkdə*
*Vətən uğrunda hələ*
*Daha qəti, amansız*
*Qurtuluş əsərləri,*
*Döyüş günləri vardı.*
*Bu günün qurbanları*
*Sabaha yadigardı.*

Rəsul Rzanın “Mirzə Cəlilin nisgilləri” şeir silsiləsi “Anlamaq dərdi”nin bədii-fəlsəfi dərkidir. Bu, Cəlil Məmmədquluzadə sənətinin mahiyyəti və müasirliyi haqqında dərin mənalı poetik uvertüradır. Xalq şairi ürək ağrısı ilə deməyə bilməyib ki: “Ölülər ölüb qurtarmayıb hələ”; “Bəlkə də qaytardılar” - nə mülk-maaş, nə yatır, nə dəyirman dərdi idi. Bu, sorağı qanlı yollarda itən insan dərdi idi”; “Qulaq asın Mirzə Cəlilin” sözünə: İnsanda insan oyadın!”. Müxtəlif illərdə yazılmış “Anamın laylası”, (1959), “Ölülər”, “Zeynəbin qisası”, “Nazlılar”, “Bəlkə də qaytardılar”, “Kamança”, “Anamın kitabı” (1967) silsiləsi Azərbaycan şeirinin Cəlil Məmmədquluzadə ruhlu yeni bir Ölülərnaməsidir. “Mirzə Cəlilin nisgilləri” silsiləsi sərbəst şeirlə yazılmış Mirzəcəlilnamədir. “Mirzə Cəlilin nisgilləri” Rəsul Rza şeirinin vətəndaşlıq ruhunun poetik gizlinləridir. Rəsul Rzanın satirik şeir silsiləsi də Molla Nəsrəddin məktəbinin müasirlik imkanlarının genişliyini və əhəmiyyətini yeni çalarla ifadə edən düşündürücü və kəskin poetik örnəklərdir. Rəsul Rzanın satirik şeirləri “Molla Nəsrəddin” - Cəlil Məmmədquluzadə kimi “baltanı dibindən vuran” əsərlərdir. “Anlamaq dərdi” şeiri həm Cəlil Məmmədquluzadə silsiləsinin fəlsəfəsi, həm də Rəsul Rza sənətinin qayəsidir. Xalq şairi Rəsul Rza Cəlil Məmmədquluzadənin kəşf etdiyi “Anlamaq dərdi” anlayışını Azərbaycan ədəbiyyatı və müasir cəmiyyətimiz üçün kütləviləşdirmişdir. “Anlamaq dərdi” Mirzə Cəlillə Rəsul Rzanın ortaq “görüş” yeri və birlik məqamıdır:

*Kimi təzə paltardan qorxur,*
*Kimi kəfəndən.*
*İskəndəri soruşdunuz məndən?*
*İskəndər içərdi,*
*Ləqəbi də Kefli İskəndərdi.*
*Gecə-gündüz düşündürərdi onu*
*Diri ölülərin dərdi.*
*Yoxsa o da nə qəmlənər,*
*Nə içərdi.*
*Ömrü ölülər içində*
*Sakit-səssiz keçərdi.*
*Qınamayın İskəndəri.*
*Yaman olur anlamaq dərdi.*

“Sarı dana və balaca qız” şeiri Rəsul Rza realizminin sərt üzünü və düz sözünü kəskin şəkildə ifadə edir. Hələ altmışıncı illərdə bu şeirdə sovet rejimində “illik planın” yerinə yetirilməsinin insan taleyindən üstün tutulması ciddi surətdə tənqid edilmişdir. Göytəpə kəndində xəstələnmiş sarı danaya göstərilən diqqət və qayğının vətəndaşa bəslənilən münasibətdən yuxarıda dayanması realist cizgilərlə ifadə olunmuşdur. XX əsr Azərbaycan ədəbiyyatında mövcud rejimə qarşı “Sarı dana və balaca qız” şeirində olduğu qədər açıq və sərt bədii nümunə göstərmək çətindir. Bu şeirin o zamanın senzurasının gözündən necə yayındığını təsəvvür etmək çətindir. “Sarı dana və balaca qız” şeiri sovet üsul-idarəçiliyinin əleyhinə yazılmış sarkazmdır. Bu, ictimai-siyasi və ədəbi mühitdə “Xruşşov istiləşməsi” dövründə Azərbaycan ədəbiyyatında meydana çıxmış ciddi tənqidi-realist əsərdir:

*Baytar dedi: tez olun!*
*...İsti su gətirin ayaqlarına!*
*Damcı dərman da lazımdır*
*Qulaqlarına*
*Nüsxə yazıldı bir qarış.*
*Maşın ürkək keçi kimi sıçradı*
*Sədrin buyruğu ağzından çıxmamış.*
*Handan-hana qoca mühasib gəldi.*
*Baxdı, ah çəkdi,*
*Dedi: - Yazığın gəlsin bizə*
*Sarı dana!*
*Amandır bu zülmü eləmə*
*İllik plana!*
*Üç gün, üç gecə*
*Gülxara ayrılmadı*
*Sarı danadan.*
*...Nə evinə gedə bildi,*
*nə urvalıq arpa apara bildi*
*Uşaqlara dəyirmandan.*
*Tənzifə qıymadı ürəyi*
*Dananın qarnına bağladı*
*Gəlinlik şalını.*
*Sədr hər axşam, hər səhər*
*Şəxsən soruşdu dananın əhvalını*
*...Əhvalat uzundur, nə deyim,*
*Bəsdir bunu desəm:*
*Dana ölmədi azardan.*
*Ancaq Gülxaranın*
*Qaragöz kiçik qızı...*
*Beşcə qulac bez aldılar bazardan.*

Rəsul Rzanın “Sarı dana və balaca qız” şeiri əsl vətəndaşlıq cəsarətinin orijinal bədii ifadəsindən ibarət olan ciddi sənət nümunəsidir. “Sarı dana və balaca qız” şeiri zamanı qabaqlayaraq ictimai düşüncəni irəli aparan ciddi şeirin böyük örnəyidir. İctimai-siyasi cəhətdən əhəmiyyətli olan “Sarı dana və balaca qız” şeiri yüksək sənətkarlıqla yazılmışdır. Bu, Azərbaycan poeziyasında süjetli lirikanın mükəmməl nümunəsidir.

Dünya, zaman və insan haqqında bənzərsiz düşüncələr Rəsul Rza sənətinin cövhəridir. Rəsul Rza həm də mükəmməl bəşəri poeziya yarada bilmişdir. Şair dünya haqqında düşüncələrinin qüvvətli orijinal və sərbəst ifadəsi olan şeirlərində bəşəriyyətin ərzi-halı poetik baxımdan mənalandırılmışdır. Rəsul Rza Azərbaycanda yaşayıb-yaradan dünya miqyaslı müasir şair idi. Yaxud belə demək də doğru olar ki, Rəsul Rzanın timsalında XX əsrin görkəmli dünya şairləri sırasında Azərbaycan özünəlayiq yer tuta bilmişdir. Dünyanın real mənzərəsini ayıq-sayıq görən və proseslərin gedişatını doğru-düzgün göstərən şair, ümumiyyətlə, insanlığın keşiyində dayanmağın çağırışlarını səsləndirmişdir. Rəsul Rza şeirlərində bəşəriyyətin müqəddəratına mənsub olduğu xalqın taleyinin işığında nəzər salaraq bədii ümumiləşdirmələr aparmışdır:

*Dünyanın anlaşılmayan*
*Çox işi var.*
*Yollarının səbr, inad, inam istəyən*
*Nə qədər*
*Enişi var, yoxuşu var.*
*Din davası, torpaq davası,*
*Rütbə, qazanc, otaq davası.*
*...Başqa -başqa sahmanlı*
*İnsanların*
*Qara, ağ davası*
*İstək dustaqlığı,*
*İmkan dustaqlığı.*
*Dərya-dərya imkanlardan verilən*
*Nemət cirəsi*
*Pay qaşığı.*
*Mənim qayğım, mənim gücüm,*
*Mənim sınağımdır.*
*Mənim çağımdır.*

Məşhur “Rənglər” silsiləsi dünya sərbəst şeirinin Azərbaycanda yaranan böyük sənət şedevrlərindən biridir. “Rənglər” sərbəst şeirləri, ümumiyyətlə, XX əsr sərbəst şeirində yeni və böyük sənət hadisəsidir. Rəsul Rzanın “Rənglər” şeirləri ilə geniş mənada dünya sərbəst şeiri yeni rəng, yeni səviyyə qazanmışdır. Bədii düşüncənin və intellektual qavrayışın dərin siyasi-fəlsəfi mühakimə ilə vəhdətindən yoğrulmuş “Rənglər” şeir silsiləsində bütöv bir epoxanın düşüncəsi ifadə olunmuşdur. Hər misrası ciddi, düşündürücü, obrazlı düşüncələrdə əks-səda tapan bədii ümumiləşdirmələrdən yaranmış “Rənglər” sərbəst şeir silsiləsində ifadə edilən mətləblər və mühakimələr rəngindən asılı olmayaraq bütün insanlar üçün də aktual və müasir səslənir. “Rənglər” poetik silsiləsi - bədii sözün ağır yüklü qafiləsidir. Nazim Hikmətin dediyi kimi, “bu, poeziyada tamamilə özünəməxsus bir yoldur”. Rəsul Rzanın “Rənglər” silsiləsi dünya sərbəst şeirində yeni hadisədir. Bu şeirlərdə ayrı-ayrı rənglərin müxtəlif çalarları vasitəsilə həyatın və insanın dərin qavrayışları ifadə olunmuşdur. “Rənglər”də hər misra xüsusi bir mətləbi mənalandırır. Böyük istedad ondadır ki, Rəsul Rza “Rənglər” silsiləsinin bütün misralarında dərin fikirləri bənzərsiz, obrazlı ifadələrlə əks etdirmişdir. Eyni zamanda şair hamıya məlum olan rənglərin naməlum çalarlarını kəşf etmişdir: “Ağ rəngin sevinc çaları”: çiçəkli bahar budağı, göyərçin qanadları, Quzey qarı; “Şirmayı: “Ölümdən gələn qazanc, zindan barmaqlığı, İlməkli kəndir, Məftilli qırbac, Naxışlı yeddi kürəciklərin yeddi illik zəhməti. Ağrıdan ulayan ölkələrin Səkinəsi, Səlmanı, Əhmədi; “Püstəyi”: Ala gözlərdə kədər; “Xurmayı”: Müstəmləkələr; “Kürən”: Cənublu ağaclar; “Badımcan”: Əyyaş burnu; “Sürməyi”: Aylı gecədə qarlı dağ təpəsi; yaxud da “Sumağı”: Döyüşdən çıxmış Qıratın nalı”.

“Rənglər” silsiləsinin bədii müqəddiməsi olan “Uvertüra” həm də bu şeirlərin finalıdır, yekunudur. “Uvertüra” Rəsul Rzanın “Rənglər” fəlsəfəsini ümumiləşmiş şəkildə ifadə edir. “Uvertüra” - rənglərin qammasıdır. “Uvertüra” - rənglərdə ifadə olunan ictimai mətləblərin dərin və obrazlı “amması”dır. “Rənglər” silsiləsi - təbiətdəki ilk baxışda görünməsi çətin olan rəngləri duyub, onlara vətəndaşlıq vəsiqəsi vermiş sənət pasportudur. “Rənglər” silsiləsi geniş mənada Azərbaycan yazılı və şifahi ədəbiyyatında istifadə olunmuş rənglərin poeziyasına Rəsul Rzanın qiymətli poetik əlavələridir. “Rənglər” silsiləsi dünya ədəbiyyatında ictimai-siyasi və ədəbi-bədii mənada istifadə olunan rəng fəlsəfəsinin zirvəsidir. Bu, Azərbaycan Xalq şairi Rəsul Rzanın ədəbiyyatımıza və dünya bədii fikrinə gətirdiyi təkrarsız, bənzərsiz rənglərdir. “Rənglər” silsiləsi dünyanın hər üzünün rənglərinin obrazlı ifadəsidir. “Uvertüra” - Xalq şairi Rəsul Rzanın vətəndaşlıq poeziyasının manifestidir.

*Rənglər könlümüzdən keçir,*
*İsti, sərin küləklər kimi.*
*Nəğmələr, sözlər, səslər*
*Qəlbimizə dolur*
*Müxtəlif rənglər kimi.*
*Rənglər xatirələr oyadır,*
*Duyğular oyadır.*
*Gördüyümüzdən artıq görmək istəməsək,*
*Hər rəng adicə boyadır.*
*Rənglərin də musiqi kimi*
*Ahəngi var.*
*Ağrının, sevincin, ümidində*
*Rəngi var.*
*Düşündükcə açılır.*
*Əlvan səhifələri rənglərin*
*Canlanır gözümdə rəngi*
*Ömrün, mübarizənin,*
*Qəlbin, nifrətin*
*Gecənin, səhərin*
*Və insan taleyinin.*

Xalq şairi Rəsul Rzanın yaradıcılığı Azərbaycan şeirinin də, dünya poeziyasının da fərqli rənglərini təbii şəkildə, bütün əlvanlığı ilə əks etdirən böyük sənət hadisəsidir. Şairin “hansı şeirim, hansı sözüm yaşayacaq məndən sonra” sualının bir cavabı var: Rəsul Rza sənətinin qüdrəti onun milliliyində və bəşəriliyində, eyni zamanda bədii ifadə baxımından bənzərsizliyindədir. Bu meyarlara cavab verən böyük sənət ölməzdir.

Rəsul Rza sənətində işıq, nikbinlik, sabaha inam, yaşamaq eşqi, gələcəyə böyük ümid duyğuları bütün rənglərdən üstündür. Şairin şeirlərində işıq qaranlıqdan deyil, ümiddən doğur. Xalq şairi Rəsul Rza Azərbaycan xalqının böyük ümidlərdən doğan işıqlı gələcəyinin qüdrətli sənətkarıdır:

*Səpələnib hər yana*
*Dünyanın rəngləri;*
*Məhəbbət, nifrət,*
*Sevinc, kədər*
*Hərəsi bir duyum oyadır çiçəklər.*
*Çöllər çəmənlidir, dağlar qarlı.*
*Yuxum həyat dadlıdır,*
*Dünya baharlı.*
*Arzularımdır - açılıb əlvan.*
*Baxıram ənginliklərə*
*Sözlərim doyumsuz,*
*Qəlbim ümidli.*
*Bir yanda Şah dağı,*
*Bir yanda Savalan.*
*Arzulardan doyarmı,*
*Rəngsiz yuxulara uyarmı,*
*Ümidi, diləyi sağ olan?*

Xalq şairi Rəsul Rza XX əsr Azərbaycan ədəbiyyatının görkəmli yaradıcılarından biri olmaqla bərabər, dünya poeziyasında özünəməxsus yeri olan novator sənətkardır. Böyük şairin dərin ictimai məzmuna və orijinal bədii formaya malik olan bənzərsiz sənəti Azərbaycan ədəbiyyatının dünya şeir mədəniyyətinin inkişafındakı rolunu və yerini nümayiş etdirir.

Rəsul Rza sərbəst şeir məktəbi Azərbaycan sərbəst şeir məktəbinin manifestidir. Bu böyük və ölməz sənət yaşayır, böyük ədəbiyyatın inkişafı yollarına işıq salmaqda davam edir. Rəsul Rza şeiri bu gün də dünya sərbəst şeirinin önündə gedir.

***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının Birinci vitse-prezidenti, Milli Məclisin deputatı, akademik***

## Laçının işğalından 28 il keçir

# Laçınlılar çox nikbindirlər



28 ildir ki, Azərbaycanın dilbər guşəsi olan Laçına həsrət qalmışıq. 28 il əvvəl ürəyimizə vurulan Laçın yarası qaysaq bağlamır. İllərdir bu nisgil bizi göynədir. Yurdumuzun ər oğulları düşməndən qisas alacaqları günü səbirsizliklə gözləyirlər.

1992-ci ilin 18 mayı tariximizə qara hərflərlə yazılmış bir gündür. Unudulması qeyri-mümkün olan qanlı bir cinayətin tarixidir. Ermənistan silahlı qüvvələri havadarlarının köməyi ilə 28 il əvvəl Laçını işğal etdilər. Düşmənin öz çirkin məqsədinə asanlıqla çatmasının bir səbəbi də o vaxtı AXC-Müsavat iqtidarının yarıtmaz siyasəti, səriştəsizliyi, qətiyyətsizliyi idi. Ayrı-ayrı siyasi qüvvələrin hakimiyyət maraqları o dərəcəyə çatdı ki, düşmənlə qeyri-bərabər döyüşlərdə əsl qəhrəmanlıq göstərən Laçının müdafiəsi unudulub arxa plana keçirildi. Laçındakı hərbi döyüş texnikasının və döyüşçülərin xeyli hissəsi Bakıya çağırılıb hakimiyyət çevrilişini həyata keçirməyə cəlb edildi. Düşmən qarşısında tək buraxılan, köməksiz qalan laçınlılar mərdliklə döyüşüb, öz qanları ilə gerçək qəhrəmanlıq salnaməsi yazdılar. Çox sayda qurbanlar verilsə də, Laçın işğal olundu. İşğal nəticəsində rayonun 1835 kvadrat kilometr ərazisi, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 96 məişət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri, 13745 yaşayış evi talan edildi. 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə erməni vandalizminə hədəf oldu. İctimai və şəxsi təsərrüfatlardakı 25 min baş iribuynuzlu mal, 200 min başdan çox qoyun-keçi, minlərlə arı ailəsi, yerli əhalinin əsrlərdən bəri min bir zəhmətlə qazandığı var-dövləti qarət edildi.

Laçının təbii sərvətləri zəngin, təbiəti son dərəcə əsrarəngiz və gözəldir. 1961-ci ildə yaradılan Laçın Dövlət Təbiət yasaqlığı 20 min hektar, 1987-ci ildə yaradılan Qaragöl Dövlət Təbiət Qoruğu isə 240 hektar ərazini əhatə edirdi. Qoruqda 68 növdən və 27 fəsildən ibarət bitki örtüyü vardı. Rayonun ərazisi civə, əhəngdaşı, mişar daşı, mərmər, gil, əqiq, əlvan bəzək daşları, mineral su yataqları kimi zəngin ehtiyatlara malik idi. Tarixi, mədəniyyət və memarlıq abidələri ilə zəngin olan Laçın sözün həqiqi mənasında gerçək canlı muzey idi. Ağoğlan məbədi (IX əsr), Dəmiroğlu pir məbədi (XI əsr), Cicimli kəndində Məlik Əjdər türbəsi (XII əsr), Kar günbəz türbəsi (XVII əsr), Soltanlar kəndində Həmzə Soltan sarayı (1761-ci il), Quşçu kəndində Pir (XII-XIII əsr), Uşaq qalası (XV əsr), onlarla digər tarixi mədəniyyət və memarlıq abidələri erməni faşistləri tərəfindən xüsusi amansızlıqla dağıdılmış, məhv edilmişdir.

Laçının işğalı nəticəsində rayonun 74 min nəfər əhalisi respublikanın 59 şəhər və rayonuna səpələnib məcburi köçkün həyatı yaşayır. Hazırda rayonun bütün strukturları Ağcabədi rayonunun Taxtakörpü ərazisində fəaliyyət göstərir. Dövlətin davamlı qayğısı ilə əhatə olunan laçınlılar əllərinin zəhməti, ürəklərinin hərarəti ilə Taxtakörpüdə abad bir qəsəbə salmışlar. 13 min nəfərdən çox laçınlı məcburi köçkün məskunlaşdığı bu ərazidə zəruri infrastruktur yaradılmışdır.

Yazın bu oğlan çağında Taxtakörpü zümrüd libası, al-əlvan gül-çiçəkləri ilə göz oxşayır. Dövlətin qayğısı ilə burada yeni yaşayış qəsəbələri salınır, əhalinin mənzil-məişət şəraiti təmin olunur. Laçınlıların torpaqdan səmərəli istifadəsi üçün əraziyə suvarma kanalları çəkilmişdir. Burada tikilmiş məktəblər, xəstəxanalar, digər xidmət obyektlərinin fəaliyyəti əhalidə rahatlıq doğurur. Bütün bunlar isə təbii ki, Laçın yarasına məlhəm ola bilməz. Bu gün hər kəs Laçına, doğma yurda qovuşmaq eşqi ilə alışıb-yanır. Günümüzün reallığına rəğmən demək olar ki, laçınlılar bu gün çox nikbindirlər. Onlar respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yeritdiyi müdrik siyasəti birmənalı olaraq bəyənir və müdafiə edirlər. İnanırlar ki, bu siyasət sayəsində tezliklə doğma yurda qovuşacaqlar.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

# XİN Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 28-ci ildönümü ilə əlaqədar açıqlama yayıb

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 28-ci ildönümü ilə əlaqədar açıqlama yayıb.

XİN-dən AZƏRTAC-a bildiriblər ki, açıqlamada deyilir:

“Mayın 18-də Azərbaycanın Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 28 ili tamam olur.

Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmayan Laçın rayonunun işğalı nəticəsində 237 nəfər həlak olub, 67 nəfər isə itkin düşüb. Bölgənin əhalisi etnik təmizləməyə məruz qalıb və hazırda 77 min 700 Laçın sakini Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün şəraitində yaşayır.

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüz siyasətinin davamı olan bu işğal rayonda dövlət və özəl mülkiyyətə ciddi zərər yetirib. Belə ki, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri məhv edilib. Həmçinin yerli və dünya əhəmiyyətli çoxsaylı tarixi abidə vandalizmə məruz qalıb. O cümlədən VI əsrə aid Alban Ağoğlan məbədi, XIV əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq viran edilib, Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan olunub.

Təcavüzkar Ermənistan işğal etdiyi digər Azərbaycan ərazilərində olduğu kimi, Laçın rayonunda da beynəlxalq humanitar hüququ, o cümlədən Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozaraq bu ərazidə qeyri-qanuni fəaliyyəti davam etdirir. Coğrafi adlar dəyişdirilir, rayonun təbii resursları talan edilir, qanunsuz infrastruktur dəyişiklikləri həyata keçirilir, burada məqsədyönlü məskunlaşma siyasəti aparılaraq bölgənin demoqrafik tərkibi dəyişdirilir.

Məlum olduğu kimi, Avropa İnsan Hüquqları Məhkəməsinin “Çıraqov və digərləri Ermənistana qarşı” işi üzrə Azərbaycanın Laçın rayonundan qovulmuş Azərbaycan vətəndaşlarının xeyrinə 2015-ci il 16 iyun tarixli qərar qəbul edilərək onların İnsan Hüquqları və Fundamental Azadlıqların qorunmasına dair Konvensiya üzrə mülkiyyət hüququ, şəxsi və ailə həyatına hörmət kimi hüquqlarının pozulduğunu təsbit edib. Həmçinin bu qərarın 19-20-ci paraqraflarında Laçın rayonu, ələlxüsus Laçın şəhərinin hərbi hücuma məruz qalması, 1992-ci il may ayının ortalarında Laçının havadan bombardman edilməsi və bunun nəticəsində çoxlu sayda evlərin dağıdılması, şəhərin talan edilməsi və yandırılması, hərbi münaqişə dövründə Laçın və ətraf kəndlərin tamamilə dağıdılması öz təsdiqini tapıb.

Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edərək işğalçı qüvvələrin zəbt olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinə, habelə digər beynəlxalq təşkilatların çoxsaylı qərar və qətnamələrinə məhəl qoymayan Ermənistan münaqişənin sülh yolu ilə həlli pərdəsi arxasında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və ətraf rayonlarında işğala əsaslanan status-kvo rejimini möhkəmləndirməyə çalışır, Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaq edilməsi siyasətini yürüdür.

Lakin dəyişməyən bir həqiqət var - Laçın, işğal olunmuş Dağlıq Qarabağ və ətraf digər rayonlar da daxil olmaqla Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyi beynəlxalq ictimaiyyət tərəfindən tanınır, Azərbaycan ərazilərinin işğalının nəticələri birmənalı şəkildə rədd edilir. Azərbaycan ərazilərinin hərbi işğal altında saxlanılması heç zaman Ermənistanın güddüyü siyasi nəticələri verməyəcəkdir. Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü müzakirə mövzusu olmayıb və ola da bilməz.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqların məqsədi münaqişənin nəticələrinin aradan qaldırılması, beləliklə də Azərbaycan torpaqlarının işğalına son qoyulması və etnik təmizləməyə məruz qalmış məcburi köçkünlərin fundamental hüquqlarının bərpa edilməsidir. Beynəlxalq hüquq, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və Paris Xartiyasında əks olunan norma və prinsipləri münaqişənin həlli üzrə aparılan danışıqlar prosesinin əsasını təşkil edir. Ermənistanın danışıqlar prosesinin əsassız şəkildə, yalan və saxtakarlıqla uzatması cəhdləri qəbuledilməzdir və bölgədə sülhün təmin olunmasına başlıca maneədir.

Münaqişənin ağır fəsadlarının aradan qaldırılması beynəlxalq ictimaiyyətinin öhdəliyi olmaqla yanaşı, BMT Nizamnaməsində təsbit edildiyi kimi Azərbaycan dövlətinin ayrılmaz hüququdur”.

# Dövlət Mükafatına təqdim olunmuş əsər

## Nəriman Nərimanov haqqında monoqrafiya professor Teymur Əhmədovun böyük zəhmət və istedadının bəhrəsidir

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurası professor Teymur Əhmədovun "Nəriman Nərimanov (həyatı, mühiti, ədəbi-bədii yaradıcılığı)" əsərini Dövlət Mükafatına təqdim edib. AZƏRTAC filologiya elmləri doktoru, professor Əsgər Zeynalov və filologiya üzrə fəlsəfə doktoru Allahşükür Qurbanovun monoqrafiya haqqında qeydlərini oxucuların diqqətinə çatdırır.

Milli Ədəbiyyatşünaslıq aləmində tanınan tədqiqatçı alim Teymur Əhmədov 1961-ci ildə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil almışdı. Xalq yazıçısı, akademik Mirzə İbrahimov ilk aspirantına N.Nərimanovun ədəbi-bədii yaradıcılığını araşdırmağı məsləhət görmüşdü.

Beləliklə, Teymur Əhmədov Mirzə İbrahimovun rəhbərliyi altında "Nəriman Nərimanovun dramaturgiyası" mövzusunda namizədlik dissertasiyasını başa çatdırıb, Azərbaycan Elmlər Akademiyasının Müdafiə şurasında (İsmailliyə binasında) uğurla müdafiə edir. Gənc tədqiqatçı Moskva, Leninqrad, Həştərxan, Kazan, Tbilisi və digər şəhərlərdə Mərkəzi Dövlət arxivlərində, mərkəzi kitabxanalarda topladığı zəngin materiallar, fotoşəkillər əsasında Nəriman Nərimanovun həyatı, mühiti, xalq işi uğrunda mübarizəsi, ədəbi-bədii yaradıcılığı haqqında dövri mətbuatda məqalələr, oçerklər dərc etdirməklə və kitablar yazmaqla yazıçının ədəbi-bədii irsini təbliğ edib.

Teymur Əhmədovun çoxcəhətli elmi-ictimai fəaliyyətində Nəriman Nərimanov irsinin öyrənilməsi diqqət mərkəzində olub. Elmi rəhbəri akademik Mirzə İbrahimovun tövsiyəsi ilə onun doktorluq elmi işi də Nəriman Nərimanova həsr edilib. Onun ədəbi hadisə kimi qarşılanan müdafiəsində respublikanın bir çox nüfuzlu alimləri - akademiklər Məmməd Cəfər, Kamal Talıbzadə, Firudin Köçərli, AMEA-nın müxbir üzvləri Abbas Zamanov və Yaşar Qarayev öz çıxışlarında Teymur Əhmədovun Nərimanşünas kimi xidmətlərini yüksək qiymətləndirmişlər.

Teymur Əhmədovun "Nəriman Nərimanovun dramaturgiyası" (1971), "Nəriman Nərimanov" (1977), "Nəriman Nərimanov" (1982), "Nəriman Nərimanovun yaradıcılıq yolu"(2005), "Nəriman Nərimanov həyatı, mühiti, yaradıcılığı" (2006) kimi elmi-tədqiqatlarında "Nərimanov dünyası - həyatı, mühiti, ictimai-siyasi, ədəbi-bədii və publisistik fəaliyyəti müxtəlif yöndən işıqlandırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nəriman Nərimanovun 150 illiyi yubileyinin qeyd edilməsi haqqında 2020-ci il 14 fevral tarixli sərəncamından sonra Teymur Əhmədov Nərimanovun ictimai-siyasi və ədəbi fəaliyyətini "Respublika" qəzetində elmi-kütləvi səpgidə silsilə məqalələrlə oxuculara təqdim edib. Bu gün onun tərtib etdiyi Nəriman Nərimanovun iki cilddə "Seçilmiş əsərləri", eyni zamanda, hər biri iki müəllif vərəqi həcmində "Nəriman Nərimanov" kitabçası Azərbaycan, türk, rus, ingilis, fransız, fars, Ukrayna dillərində nəşr olunmaqdadır.

Nəriman Nərimanovun 150 illik yubileyi münasibətilə Təhsil nazirliyinin, Mədəniyyət nazirliyinin və Yazıçılar Birliyinin tədbirlər planında böyük ictimai-siyasi xadim və yazıçı haqqında kitab nəşri ("Nəriman Nərimanov", "Nəriman Nərimanov (fotoalbom)", "Nəriman Nərimanovun dramaturgiyası") nəzərdə tutulub.

Professor Teymur Əhmədovun "Nəriman Nərimanov (həyatı, mühiti və ədəbi-bədii yaradıcılığı)" kitabı Azərbaycan Respublikasının Dövlət Mükafatına təqdim olunub. Bu gün diqqətimizi cəlb edən "Nəriman Nərimanov (həyatı, mühiti, ədəbi-bədii yaradıcılığı) monoqrafiyası barəsində nə demək olar?

İlk təəssürat belədir ki, müəllif Nəriman Nərimanovun zəngin irsini araşdırarkən mərkəzi kitabxanalarda, dövlət arxivlərində ciddi axtarışlar aparıb: "Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi, Marksizm-Leninizm İnstitutunun Azərbaycan filialı partiya arxivi, Moskva şəhərindəki SSRİ Mərkəzi Dövlət Arxivi, Leninqrad şəhərindəki SSRİ Mərkəzi Dövlət Arxivi, AMEA-nın Əlyazmalar Fondu, Gürcüstan SSR Mərkəzi Dövlət Tarixi Arxivi, Gürcüstan SSR Mədəniyyət Nazirliyi Arxivi, Gürcüstan SSR Maarif Nazirliyi xalq maarifi muzeyinin fondu, Azərbaycan Tarixi Muzeyi. Düzdür, arxivlərdə axtarışlar aparıb, tapıntılar əldə etmək asan olmasa da, bu, ərsəyə gələn əsərin zənginliyi, mövzunu tam əhatə etməsi üçün mühüm zəmin yaradır.

Professor Teymur Əhmədovun əsəri belə axtarışlar, zəngin arxiv materialları, qaynaqları əsasında yaranaraq oxuculara təqdim olunub.

Əsər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb. Kitabın redaktoru akademik Mirzə İbrahimov, ön sözlərin müəllifləri isə akademiklər Cəmil Quliyev və Kamal Talıbzadədir.

Akademik Cəmil Quliyev "Zəhmət və istedadın vəhdəti" adlı yığcam, ancaq çox tutarlı ön sözündə Teymur Əhmədovun N.Nərimanov yaradıcılığına sadiqliyini bildirərək yazır: "70-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasında Nəriman Nərimanov haqqında ilk sanballı tədqiqat əsərinin müəllifi kimi kəşf etdim, indiyə kimi də sadiq "əsl Nərimanovçu" kimi N.Nərimanova həsr olunmuş monoqrafiyalar, külliyyatlar, müxtəlif janrlarda məqalə və müxtəlif sənədlər çap etdirən Teymur Əhmədovdur".

Monoqrafiyanın "Nəriman Nərimanovun bədii yaradıcılığının tədqiqi tarixi" adlı birinci fəslində ədibin bədii yaradıcılığının araşdırılması tədqiqat obyekti kimi götürülüb. Monoqrafiyadan bəlli olur ki, N.Nərimanovun ədəbi yaradıcılığının ilk tədqiqatçısı Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatı tarixində N.Nərimanovun mövqeyini düzgün müəyyənləşdirib. F.Köçərli XIX əsrin sonlarını Azərbaycan ədəbiyyatının ən məhsuldar dövrü adlandırır, sürətlə inkişaf edən dramaturgiyanın M.F.Axundovdan sonra N.Vəzirov, N.Nərimanov, Ə.Haqverdiyev, S.S.Axundov, Ə.Adıgözəlov və başqa nümayəndələrinin yetişdiyini göstərib.




Müəllif görkəmli ədəbiyyatşünas alimlər - Firidun bəy Köçərli, M.Quliyev, H.Zeynallı, Əziz Şərif, H.Səmədzadə, Bəkir Çobanzadə, Mir Cəlalla yanaşı, A.Lunaçarski, P.Sibirtsev, S.Qorodetski, M.Pavloviç, S.Veltman, İ.Borozdin, habelə dünya şöhrətli türk alimi Məhəmməd Fuad Köprülzadənin 1926-cı ildə Parisdə fransız dilində Müsəlman aləmi xəbərlərində ("Azərbaycanda teatr" adlı bölməsində) N.Nərimanov yaradıcılığı ilə əlaqədar məqalələrini tədqiqata cəlb edib. Bu alimlər ədibin həm dram, həm də nəsr əsərləri ilə bağlı müxtəlif yöndən dəyərli fikirlər söyləmişlər. Tədqiqatçı həmin fikirlərin hamısını heç də ehkam kimi qəbul etməyib.

Əsərin "Nəriman Nərimanovun həyatı, mühiti, ictimai-siyasi fəaliyyəti (1870-1918)" adlı ikinci fəslində N.Nərimanovun əsil-nəcabəti, ilk təhsili, Qori seminariyasında təhsil alaraq, Borçalı qəzasında yeganə müsəlman məktəbi olan Qızılhacılıda müəllim işləməsi, burada baş verən hadisələrin əsasında "Nadanlıq" pyesinin yaranması diqqətə çatdırılır.

Əsər boyu tədqiqatçı N.Nərimanovun bir amal uğrunda çalışdığını göstərmək istəyir - xalqını azad, müstəqil görmək, milləti təhsillə irəli aparmaq. Bakı realnı məktəbində işləyərkən 3 dərslik hazırlayıb nəşr etdirən N.Nərimanov yazırdı ki, hansı millət qabağa gedib tərəqqi edibdi, ancaq elmin gücünə xoşbəxt olub. Bu maarifpərvər insan Bakıda ilk qiraətxananı açdırmış, bir sıra şəxslər, o cümlədən S.Axundov, H.Z.Tağıyev və açıqfikirli ziyalılar bura kömək göstərmişdi. Qiraətxanaya Bakıda nəşr olunmuş qəzetlərlə yanaşı, müxtəlif yerlərdən, o cümlədən Kəlküttə, İstanbul, Qahirə, Sofiya, Təbriz, Tehran və digər şəhərlərdən xeyriyyə yolu ilə pulsuz kitab, qəzet və jurnal göndərilirdi.

İkinci fəsildə N.Nərimanovun "Nadanlıq", "Dilin bəlası, yaxud Şamdan bəy", "Nadir şah" pyeslərini yazması, Qoqolun "Müfəttiş" komediyasını tərcümə etməsi, Odessada təhsil alması, inqilabi hərəkata qoşulması "Həyat", "İrşad", "Hümmət" qəzetlərində məqalələr dərc etdirməsi, böyük bir ailənin qayğısını çəkməsi, Cəlil Məmmədquluzadə ilə məktublaşması, Həştərxanda epidemiya dövründə İ.İ.Meçnikovla görüşməsi, məsləhətləşməsi qabarıq şəkildə göstərilib. Müəllif N.Nərimanovun Həştərxandakı sürgün dövründən ətraflı bəhs edib. Əsərdə o da xüsusi vurğulanır ki, N.Nərimanov Şərqi əsarətdən xilas etməyi özünün müqəddəs borcu bilirdi və bu istiqamətdə görüləcək işlərin təməlini qoyurdu.

Monoqrafiyanın "Maarifçi realist ədəbiyyat tarixində yeni mərhələ" adlanan üçüncü fəsli N.Nərimanovun dramaturgiyasına və nəsr əsərlərinə həsr olunub. Bu fəsildə N.Nərimanovun "Nadanlıq", "Dilin bəlası, yaxud Şamdan bəy", Azərbaycan ədəbiyyatında ilk tarixi faciə olan "Nadir şah" pyesləri, "Bahadır və Sona" romanı, "Pir", "Bir kəndin sərgüzəşti" nəsr əsərləri geniş şəkildə tədqiqata cəlb edilib.

Professor T.Əhmədov "Bahadır və Sona" faciəsini ədibin sonuncu səhnə əsəri və onun eyni adlı romanı əsasında yazıldığını bildirir. Xatırlatmaq lazımdır ki, müsəlman oğlu ilə xristian qızının sevgi macərası yeni mövzu deyildi: "Əsli və Kərəm" dastanı, XVIII əsrin dahi fransız ədibi Volterin "Zairə" faciəsi. Bu faciədə də türk oğlu Orosmonla xristian qızının arasındakı məhəbbət xoşagəlməz sonluqla nəticələnir. Dini ayrılıq məhəbbəti faciələrə çevirir.

Ədəbiyyatda bir tendensiya mövcuddur. Əgər yazıçı, yaxud şair öz zamanında olan haqsızlıqları deyə bilmirsə, hadisələri ya başqa ölkədə, ya da hər hansı keçmiş zamanda əks etdirir. Tədqiqatçı yazır ki, N.Nərimanov çar hökuməti orqanlarından yaxa qurtarmaq üçün "Nadir şah" əsərində hadisələri İranın XVIII əsr tarixinə - Şah sultan Hüseyn Səfəvinin dövrünə aid edib. Xəyanət, çəkişmə və intriqa yuvası olan saraylar, xalqdan uzaq düşmüş hökmdarlar bir-birini faciəli surətdə əvəz edirlər. Burada yazıçı çar üsul-idarəsinin dağılması fikrini təbliğ edirdi.

N.Nərimanovun "Pir", "Bir kəndin sərgüzəşti" hekayələrində dini fanatizmin tənqidi əsərlərin əsas məqsədi kimi təqdim olunub.

Monoqrafiyanın "Nəriman Nərimanov və teatr mədəniyyəti" adlanan dördüncü fəslində N.Nərimanovun Azərbaycan teatrının inkişafındakı xidmətlərindən bəhs olunur. Araşdırıcı XIX əsrin 90-cı illərini Azərbaycan teatrının xüsusi inkişaf dövrü kimi dəyərləndirir. Ə.Haqverdiyevin əsərdə təqdim olunan aşağıdakı sözləri də həmin fikri təsdiq edir: "...90-cı illərin əvvəllərindən ziyalıların sayı artır. Axundovun yolunu davam etdirən dramaturqlar meydana çıxır, repertuar genişlənir. Bu zaman Nəriman Nərimanov Bakıya gəlib çıxır; bir çox müəllim yoldaşlarının köməyi ilə daimi həvəskar truppa təşkil edir. Tamaşalar camaatı cəlb etməyə başlayır".

Kitabda Nəriman Nərimanovun milli teatr və tatar teatrı sahəsində xidmətləri ilk geniş elmi şərhli mötəbər mənbələrlə təsbit edilib.

Monoqrafiyanın "Nəriman Nərimanovun ədəbi-nəzəri görüşləri" adlanan beşinci fəslində müəllif bu görkəmli şəxsiyyətin ədəbi-ictimai baxışlarını tədqiq etməyə çalışıb. Ədibin teatr haqqında düşüncələri xüsusilə diqqəti cəlb edir: Komediyanı əyləncə deyil, tərbiyə hesab edən N.Nərimanov yazırdı ki, biz teatrda öz qüsurlarımızı görüb, əlbəttə çalışırıq ki, özümüzü yaxşı adamlara oxşadaq və pis adamlardan kənar olaq. Teatr böyüklər üçün bir məktəbdir.

Ədibin Avropa və rus ədəbiyyatına dərindən bələd olduğunu vurğulayan Teymur Əhmədovun fikrincə, Nəriman Nərimanovun ədəbi-tənqidi və publisistik məqalələrində Şekspir, Höte, Şiller, Bayron, İbsen, Tolstoy, Turgenev, Krılov, Qoqol, Hüqo, Zolya və başqalarının yaradıcılığına müraciət etməsi təsadüfi deyildir. O, bu yazıçıların ictimai və məzmunlu əsərlərində özünün təbliğ etdiyi ideyaya yaxınlıq görürdü.

Monoqrafiyanın "Nəriman Nərimanovun publisistikası: Maarifçilikdən inqilabi-demokratizmə doğru" adlı altıncı fəslində yazıçının dövri mətbuatda nəşr etdirdiyi məqalələr tədqiqata cəlb edilib. "Tərcüman", "İrşad", "Həyat", "İqbal", "Hümmət" qəzetlərində çıxış edən N.Nərimanov xalqın maariflənməsini, Şərq xalqlarının azad olunmasını, Azərbaycanın müstəqilliyini həmişə ön planda təbliğ edirdi. "Müsəlman müəllimləri" adlı məqaləsində N.Nərimanov ürək yanğısı ilə yazırdı: "...Vaxt keçibsə də ittifaq edib qabaqda gedən qonşuları elm və fəndə, sənəddə təqib etməli, yüyürüb onlara çatmalı! Yoxsa, getdikcə qaranlıqda qalıb işlərimiz fəna, özümüz xar və zəlil olacağıq".

Teymur Əhmədov öz tədqiqatında Nəriman Nərimanovun yaşadığı mühitin fonunda onun canlı obrazını yaratmağa çalışıb, maarifçilikdən inqilabi demokratizmə məfkurəvi inkişaf yoluna işıq salıb.

Akademik Cəmil Quliyevin təbirincə desək, "məhz Heydər Əliyevin dühası ilə azərbaycanlı ictimai-siyasi dövlət xadiminə Bakıda ucaldılmış ilk möhtəşəm heykəl Nəriman Nərimanovdur!" Bu, təsadüfi deyildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nəriman Nərimanovun 150 illik yubileyinin qeyd edilməsi haqqında 2020-ci il 14 fevral tarixli sərəncamında deyilir: "Nəriman Nərimanovun bədii yaradıcılığı ilə ictimai və siyasi fəaliyyəti arasında üzvi bağlılıq vardır.

...Bakıda əzəmətli abidəsinin ucaldılmasının və ev muzeyinin açılmasının, həmçinin ölkəmizin hüdudlarından kənarda xatirəsinin təntənəli keçirilməsinin təşəbbüskarı Ümummilli Lider Heydər Əliyev olmuşdur".

Məlum olduğu kimi, sovet hakimiyyət illərində ictimaiyyətə "unutdurulmuş" Nəriman Nərimanovun ictimai, ədəbi-bədii, publisist irsini tədqiq edib dəyərli elmi monoqrafik əsər yazılması vətəndaşlıq cəsarəti tələb edirdi.

"Nəriman Nərimanov" kitabının yaranışı ictimai fikirdə yeni hadisə idi, yeni tədqiqatlara yol açırdı. Milli ədəbiyyatşünaslığın görkəmli xadimi, akademik Kamal Talıbzadə filologiya elmləri doktoru, professor Teymur Əhmədovun böyük zəhmətinin və istedadının bəhrəsi - "Nəriman Nərimanov (həyatı, mühiti və ədəbi-bədii yaradıcılığı)" əsərinin Azərbaycan ədəbiyyat elmini zənginləşdirməsinə, gətirdiyi yeniliklərə görə yüksək dəyər verərək yazır: "Oxuculara təqdim olunan monoqrafiya N.Nərimanovun çoxcəhətli fəaliyyəti haqqında vahid metodoloji mövqedən yazılmış sanballı ümumiləşdirici əsərdir. Məhz bu əsəri oxuyanda bir daha əmin olursan ki, hamımızın yaxşı tanıdığını güman etdiyimiz N.Nərimanov haqqında belə bir əsərin yazılması təxirəsalınmaz elmi zərurət imiş. Burada N.Nərimanov bütöv görünür: tədqiqatçı, "Hümmət" qəzetinin ədəbi-tarixi mövqeyindən tutmuş ədibin Tiflis, Bakı, Odessa, Həştərxan dövrü fəaliyyətinə dair ən adi faktlara belə laqeyd qalmamış və maraqlı burasıdır ki, bu tipli əsərlər üçün bəzən zərurətə çevrilən təbii təhlükədən, fakta aludəçilikdən, empirizmdən bacarıqla xilas ola bilmiş, faktın özü yox, onun tarixi mənası haqqında müasir elmi həqiqətləri ümumiləşdirməyə nail olmuşdur. Bunu həm əsərin, həm də alimin elmi nailiyyəti hesab etmək olar".

Monoqrafiyanın mühüm elmi yeniliyi zənnimizcə bundadır ki, tədqiqatçı N.Nərimanovun şəxsiyyəti və ədəbi-tarixi mövqeyini səciyyələndirə bilən ən başlıca cəhəti ictimai-siyasi şüurla bədii təfəkkürün vəhdəti, qarşılıqlı təsiri problemini ön plana, əsas mövqeyə keçirir. Bizcə belə bir cəhəti ən bariz şəkildə N.Nərimanovla bağlı tədqiqatda vermək olardı.

N.Nərimanov irsinin tədqiqi bir də ona görə əhəmiyyətlidir ki, o, müasir Şərq hadisələrini başa düşməyə, Azərbaycanın tarixi mövqeyi haqqında düşünməyə kömək edə bilər.

Diqqətəlayiqdir ki, T.Əhmədov N.Nərimanovun ədəbi tarixi mövqeyini tarixilik prinsipi ilə tədqiq edə bilib. Ona görə də əsərdə həm burjua mətbuatından, həm də demokratik və marksist mətbuatdan götürülən faktlara obyektiv, vicdan və səmimiyyətlə yanaşılır. Məhz bunun sayəsində də N.Nərimanovun tarixi şəxsiyyət, inqilabçı, filosof və ictimai xadim, böyük sənətkar kimi maarifçilikdən inqilabi-demokratizmə doğru inkişafının həm dünyagörüşü, həm də ədəbi-bədii aspektə inkişafı tarixən doğru izah olunub. N.Nərimanovun xalqla, torpaqla, milli təfəkkürlə, habelə kommunizm nəzəriyyəsi ilə bağlılığı ardıcıl və məntiqli surətdə izah edilib.

T.Əhmədovun N.Nərimanov haqqındakı bu qiymətli əsəri elmi fikrimiz üçün belə bir həqiqəti aşkara çıxarır ki, Azərbaycan ədəbiyyatşünaslığının hələ ayrı-ayrı klassiklərə həsr olunmuş monoqrafik tədqiqatlara ciddi ehtiyacı var. Qoy xalq həyatından, milli mənəviyyatımızın ruhundan, arxivimizdən, təzkirələrimizdən, mətbuat tariximizdən xəbərsiz ədəbiyyatçılar bilsinlər ki, hər hansı sənətkarın bioqrafiyasından, arxivlərdə unudulmaqda olan adi faktlardan kənarda bir çox nəzəri problemləri lazımi səviyyədə, dürüstlüklə həll etmək çox çətindir. T.Əhmədovun tədqiqatı bu cəhətdən də diqqəti cəlb edir. Müəllifin üstünlüyü də onda aşkara çıxdı ki, o, özündən əvvəlki tədqiqatçılara münasibətdə elmi ədalət prinsipini rəhbər tutur, başqa xalqlara, onların mədəniyyətinə də hörmətlə yanaşır. Elə buna görə də alimin polemikaları da səciyyəli və inandırıcıdır.

T.Əhmədovun monoqrafiyası Şərqin yetişdirdiyi qüdrətli simalardan biri haqqında filoloji aspektdə yazılmış ədəbi, tarixi, sosial-fəlsəfi və estetik problemlər qoyub həll edən maraqlı tədqiqat əsəridir. Burada müəllif N.Nərimanova hərtərəfli yanaşıb, onu bütöv göstərməyə çalışıb.

Oxuculara təqdim olunan kitab Nərimanov şəxsiyyəti ilə onun qoyub getdiyi zəngin ədəbi irs arasında ayrılmaz bir vəhdətin olduğunu təsdiqləyən, Nərimanov ideallarını şərh və təhlil edən, qiymətləndirən lazımlı, dəyərli tədqiqat əsəridir.

Ədəbiyyatşünaslıq elminin mərkəzi - Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurası şöbə müdiri, filologiya elmləri doktoru, professor Teymur Əhmədovun "Nəriman Nərimanov (həyatı, mühiti, ədəbi-bədii yaradıcılığı)" əsərini Dövlət Mükafatına təqdim edib. Haqq, ədalət naminə həmin əsərin hörmətli komissiya üzvləri tərəfindən rəğbətlə qarşılanacağına ümid bəsləyirik.

## Azərbaycanda daha 113 nəfər koronavirusa yoluxub, 40 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 113 yoluxma faktı qeydə alınıb, 40 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, kəskin böyrək çatışmazlığı, şəkərli diabet və ürəyin işemik xəstəliyi olan 1961-ci il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 3387 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 2055 nəfər müalicə olunaraq sağalıb, 40 nəfər vəfat edib, 1292 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 45 nəfərin vəziyyəti ağır, 57 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 235.910 test aparılıb.

## Azərbaycanda ilk dəfə olaraq Bakı Ali Neft Məktəbində buraxılış işlərinin onlayn müdafiəsinə başlanılıb

Bakı Ali Neft Məktəbinin Mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycanda ilk dəfə olaraq Bakı Ali Neft Məktəbində (BANM) buraxılış işlərinin onlayn müdafiəsinə start verilib.

Ali məktəbin V kurs tələbələri buraxılış işlərini və magistrantlar isə dissertasiya işlərini onlayn şəkildə müdafiə edirlər. Müdafiə prosesi "MS Teams" onlayn platforması üzərindən canlı formada Yekun Dövlət Attestasiya və İxtisaslaşdırılmış Elmi Şuranın üzvlərinin iştirakı ilə təşkil olunub.

2019/2020-ci təhsil ilində tədris planlarının bütün şərtlərini yerinə yetirmiş və tədris olunan bütün fənlər üzrə attestasiyalardan müvəffəqiyyətlə keçmiş "Neft-qaz mühəndisliyi", "Kimya mühəndisliyi" və "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisaslarının tələbələrinin buraxılış işlərinin müdafiəsi davam edir.

Eyni zamanda, "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisasının "Texniki sistemlərdə informatika və idarəetmə" ixtisaslaşması üzrə təhsil alan II kurs magistratura tələbələri də dissertasiya işlərini onlayn formada müdafiə edirlər.

Sonda tələbələr professor-müəllim heyətinin suallarını cavablandırırlar.

Qeyd edək ki, tələbələr uzun müddət elmi rəhbərləri ilə birgə dissertasiya işlərinin hazırlanması yönündə birgə işləyiblər.

## Koronavirusla mübarizəyə dəstək əvəzinə etiraz aksiyaları

### Belə hadisələr daha çox Avropada baş verir

Dünyanın hər yerində tüğyan edən yeni tip koronavirusun yayılmasını dayandırmaq üçün hökumətlər ictimaiyyətin dəstəyi ilə səylərini davam etdirir. Nəticə də özünü göstərir. Bəzi ölkələrdə gözəgörünməyən düşmən üzərində qələbə çalmaq mümkün olmuşdur.

Bir sıra digər ölkələrdə isə virusun törətdiyi fəsadların minimuma endirildiyi müşahidə olunur. Bu reallığı nəzərə alaraq səlahiyyətli hakimiyyət orqanları tətbiq olunmuş karantin tədbirlərini mərhələ-mərhələ, planlı şəkildə yumşaltmağı qərarlaşdırır. Koronavirusdan ən çox əziyyət çəkmiş ölkələr də belə istiqamət götürür. Hərçənd koronavirus epidemiyasının ikinci dalğasının gələcəyi istisna olunmur. Hətta bu bəlanın bəşəriyyətlə daim yaşayacağını iddia edən ekspertlər də var.

Pandemiyanın hansı tempdə davam edəcəyinə baxmayaraq, karantin məhdudiyyətlərinin yüngülləşdirilməsi anlaşılandır. Çünki bir tərəfdən, iqtisadiyyatın dayanmış vəziyyətdə qalması sonsuzluğadək davam edə bilməz, axı cəmiyyətin gələcəyini də düşünmək lazımdır. Digər tərəfdən, insanları davamlı olaraq evdə təcrid vəziyyətində saxlamaq olmaz: uzun müddət evdə qalanların, xüsusilə yaşlı adamların düşdüyü psixoloji vəziyyəti təsəvvür etmək çətin deyil.

Bununla yanaşı, koronavirus pandemiyasının davam etdiyi vəziyyətdə bütün karantin tədbirlərini bütünlüklə ləğv etmək olmaz - fəsadlar ağır ola bilər. Nə qədər qəribə olsa da, belə istəkdə olanlar az deyil. O da qəribədir ki, bu istəyin sahibləri daha çox Avropada peyda olurlar.

Ötən şənbə günü qoca qitənin bir neçə ölkəsində hökumətlərin tətbiq etdiyi karantin tədbirlərinə qarşı çıxanlar növbəti dəfə kütləvi aksiyalar keçirdilər, halbuki koronavirus pandemiyası fonunda kütləvi toplantılar müvəqqəti olaraq qadağan edilmişdi. Nümayişçilər fərqli tələblər irəli sürmüşdülər. Polşanın paytaxtı Varşavada yüzlərlə sakin küçəyə çıxaraq özlərinin vətəndaş hüquqlarının pozulmasına etiraz etmiş, həmçinin iddia etmişlər ki, hökumət koronavirusun doğurduğu böhran şəraitində vətəndaşlara kifayət




qədər maliyyə yardımı göstərmir. Polis nümayişçiləri dağıtmaq üçün gözyaşardıcı qazdan istifadə etmək məcburiyyətində qalmışdır.

Rumıniyanın paytaxtı Buxarestdə hökumətin koronavirus pandemiyası ilə əlaqədar tətbiq etdiyi məhdudlaşdırıcı tədbirlərə etiraz əlaməti olaraq yeni aksiya keçirilmişdir. Nümayişçilər koronavirusun mövcudluğunu, həmçinin COVID-19-a yoluxma və ölüm halları barədə yayımlanan məlumatların dəqiqliyini təsdiqləyən dəlillər ortaya qoymağı tələb etmişlər. Onlar məhdudlaşdırıcı tədbirlərin Konstitusiyanı pozmaqla tətbiq olunduğunu iddia edir, ziddiyyətli qanunvericiliyi və mətbuatın senzuraya məruz qalmasını tənqid edirdilər. Özü də mitinq üç nəfərdən çox adamın bir yerdə toplaşmasının qadağan olunmasına baxmayaraq keçirilmiş, nümayişçilər maska taxmamış, əlcək geyməmiş, sosial məsafəyə riayət etməmişdilər.

Almaniyanın müxtəlif bölgələrində məhdudlaşdırıcı tədbirlərin əleyhinə minlərlə vətəndaşın iştirakı ilə çoxsaylı etiraz aksiyaları keçirilmiş, həm də ifrat sağçılar bu nümayişlərdən öz məqsədləri üçün istifadə etməyə cəhd göstərmişlər. Aksiyalara qatılanların əksəriyyəti ölkə Konstitusiyasına hörmət edən vətəndaşlar idilər. Lakin Konstitusiyanın Müdafiəsi üzrə Federal İdarənin sədri Tomas Haldenvanq yaranmış vəziyyətdən narahatlığını gizlətmir. O, ehtiyatlanır ki, cəmiyyətdə düşmən obrazı kimi tanınan və dövləti parçalamağa çalışan sağçı ekstremistlər günlərin birində bu etiraz aksiyalarına başçılıq edə bilərlər: "Biz narahatlıqla belə bir tendensiya müşahidə edirik ki, ekstremistlər, xüsusilə sağçılar "miqrasiya böhranı" ilə yanaşı, nümayişlərdən öz məqsədləri üçün istifadə edirlər". Onun dediyinə görə, sağçı ekstremistlər müəyyən qrup vətəndaşları ələ almaq üçün yollar axtarır və tərəfdarlarını etiraz aksiyalarında fəal iştirak etməyə çağırırlar.

Şimali Reyn-Vestfaliya vilayətinin Daxili İşlər naziri Herbert Royl da etiraz hərəkatının doğura biləcəyi təhlükəni vurğulayır. Onun dediyinə görə, "qoyun dərisi geymiş çoxsaylı canavarlar etiraz aksiyalarına qoşularaq antidemokratik şüarlar səsləndirib cəmiyyətin qəlbinə girməyə çalışırlar". Royl qeyd etmişdir ki, Şimali Reyn-Vestfaliyada "koronavirus" etirazları zamanı müxtəlif qruplaşmaların üzvləri, o cümlədən ekstremistlər diqqəti özlərinə cəlb etmişlər. Oxşar vəziyyət Baden-Vürtemberq vilayətində də müşahidə olunmuşdur.

Qeyd etmək lazımdır ki, Almaniyada COVID-19-dan ölənlərin sayı əksər Avropa ölkələri ilə müqayisədə xeyli azdır. Buna baxmayaraq, Federal Kansler Angela Merkel karantinin davam etməsini lazım bilir. Onun fikrincə, məhdudlaşdırıcı tədbirlər infeksiyanın yayılmasını dayandırmağa və epidemiyanın ikinci dalğasının qarşısını almağa kömək edər. Amma ölkə vətəndaşlarının heç də hamısı Merkelin mövqeyini qəbul etmir.

Belə bir şəraitdə Almaniya iqtidarı bir tərəfdən, koronavirus epidemiyasının fəsadlarının artmasından əndişələnir, digər tərəfdən isə, vahid mərkəzdən idarə olunmayan etiraz aksiyalarında liderliyin radikalların əlinə keçməsindən ehtiyatlanır. Hələliksə hökumət vətəndaşlara təkrar-təkrar xəbərdarlıq etməli olur: dinc kütləvi aksiyalar insanların öz fikirlərini ifadə etməsi üçün lazımdır, amma bu, nümayişçiləri həmvətənləri qarşısında məsuliyyətdən azad etmir. Paradoksal haldır ki, ölkə sakinləri hökumətin siyasi xəttini ümumən dəstəkləsələr də, keçirilmiş rəy sorğularının nəticələrinə görə, karantin tədbirlərini bəyənənlərin sayı get-gedə azalır.

*Allahverdi MEHDİYEV, "Azərbaycan"*

### Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" Publik Hüquqi Şəxsi (DOST Agentliyi) beynəlxalq və ölkə səviyyəli tədbirlərdə, bayramlarda, mükafatlandırma, eləcə də yubiley mərasimlərində təbrik və xatirə məqsədilə verilməsi nəzərdə tutulan hədiyyələrin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 21 may 2020-ci il saat 12:00-dək Bakı şəhəri, İ.Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisinə təqdim edilməlidir (telefon: 012-525-50-26). Zərflər 21 may 2020-ci il saat 15:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları DOST AgentliyininBakı şəhəri, İ.Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Baş Prokurorluğu üzrə texniki dəstək xidmətlərinin, avtomobil təmiri xidmətlərinin və tərcümə xidmətlərinin satın alınması üzrə tender proseduru ləğv edilmişdir.

*Tender komissiyası*

## REQUEST FOR EXPRESSIONS OF INTEREST CONSULTING SERVICES - FIRMS SELECTION

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
**Loan No./Credit No./ Grant No.: P122812, Ln 8286Az**

Assignment title: **Consultancy services for development of the agro-insurance system database in Azerbaijan**

**Reference No** (as per Procurement Plan): AZ-AACD-167216-CS-CQS

The Government of Azerbaijan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds for consulting services.

The project consists of four components:

*(i) Component A - Support for sanitary and phytosanitary services, which is structured into three subcomponents: support: (i) Food Safety Capacity Building; (ii) Upgrading Plant Health and Phytosanitary System, and (iii) Animal Health and Veterinary Services.*
*(ii) Component B - Agri-food value chain development. The activities will be structured into two sub-components: (i) Investment and advisory support for agribusiness value chain development, and (ii) Seed sector development.*
*(iii) Component C - Financial services to agribusiness.*
*(iv) Component D - Project Management.*

**Objectives of the assignment**

The overall objective of the assignment is development of database for agro-insurance system in Azerbaijan. Database on agro-insurance system will serve the objective and purposes of Agrarian Insurance Fund and Agrarian Research Centre (Beneficiaries) under the Ministry of Agriculture.

Establishment of database will be on the following content:

1. Agro technical information
2. Geographical information
3. Market prices
4. Insurance risks

Consultant shall submit approach to the task, which will include a work plan, survey design paper (including questionnaire, sampling methodology and calculation, stratification and sample weights, the sample frame, as well as and field work schedule). Furthermore, the Consultant shall create a database and prepare/justify the content (list) of risks covered by agro insurance.

**Team Composition and Qualification Requirements**

- The applicant should have at least 10 years of experience in conducting national
- wide and large scale sampling surveys in Azerbaijan;
- Experience in conducting surveys in agriculture and related fields is preferable;
- Analytical and practical experience in survey methodologies, experience in
- statistical analysis, and establishing and maintaining database;
- Demonstration of strong quality control mechanisms; Strong field presence would
- be considered as an advantage.

The Consultant team shall include the following key personnel with relevant qualifications:

1. Study/survey Manager
2. Field Manager
3. Agriculture economist
4. Agricultural insurance specialist
5. Field Enumerators with extensive experience in data collection.

The assignment will be implemented over the course of 4 *months starting in about June 2020*.

The Agricultural Competitiveness Improvement Project now invites eligible consultants to indicate their interest in providing the services. Interested consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.

Consultant will be selected under Consultants Qualifications Selection (CQS) method as specified in the World Bank's Guidelines: *Selection and Employment of Consultants under İBRD Loans by World Bank Borrowers dated January 2011 Revised July 2014.*

Consultants may associate with other firms in the form of a joint venture or a sub consultancy to enhance their qualifications. In this case of association, the roles and responsibilities of each partner should be clearly indicated.

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by June 08, 2020.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan**
**Agricultural Competitiveness Improvement Project**
**Attn: Mr. Anar Azimov**
**Project Director**
**25E, Nobel Avenue Baku White City Business Center, AZ 1025, Baku, Azerbaijan**
**Tel: (+99412) 525 01 17/3015**
**E-mail:** a.azimov@akia.gov.az; anarazim@hmail.com; gunelsafaraliyeva@gmail.com; n.isgandarova@akia.gov.az; nargiz.acip@gmail.com
**Web: akia.gov.az**

## Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan informasiya sistemlərinin proqram platformalarının dəstəklənməsi ilə bağlı tenderlərin nəticələrinə dair BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 12 mart 2020-ci il tarixli nömrəsində elan edilmiş və elektron satınalmaları proseduru çərçivəsində keçirilmiş açıq tenderlərin nəticələrinə görə Tender komissiyasının 17 aprel 2020-ci il tarixli qərarına əsasən aşağıdakı şirkətlər tenderlərin qalibləri müəyyən edilmişdir:

1. Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan Elektron Sənəd Dövriyyəsi Sisteminin proqram platformasının dəstəklənməsi üzrə - "Sinam" şirkəti.
2. Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan Elektron Sənəd Dövriyyəsi Sisteminin təkmilləşdirilməsi üzrə - "Sinam" şirkəti.
3. Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan Elektron imza üzrə sertifikatlaşma sisteminin proqram platformasının dəstəklənməsi üzrə - "Sinam" şirkəti.
4. Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan Mərkəzləşdirilmiş Kredit Reyestri Sisteminin proqram platformasının dəstəklənməsi üzrə - "R.İ.S.K." Elmi İstehsalat Şirkəti.

Qalib şirkətlərlə müvafiq satınalma müqavilələri imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 01 iyun 2020-ci il saat 14:30-da keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC-nin "Yaşıl", "Qırmızı" və "Bənövşəyi" xətlərinin stansiya və yol mənzillərindəki havalandırma şaxtalarında quraşdırılacaq səs boğucuların və onların şef-montaj işlərinin satın alınması üzrə açıq tenderin vaxtı 30 iyun 2020-ci il saat 14:30-a dəyişdirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 18 iyun 2020-ci il saat 14:30-a qədər, tender təklifi və bank təminatını isə 29 iyun 2020-ci il saat 14:30-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

*Tender komissiyası*

# Güclü külək ağacları və binanın damını elektrik xətlərinin üzərinə aşırıb





Ötən gecədən müşahidə edilən güclü külək paytaxt Bakıda və bəzi regionlarda elektrik enerji təsərrüfatına ciddi ziyan vurub və nəticədə bəzi ərazilərdə elektrik enerjisinin verilişində qısa fasilələr yaranıb. "Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, yaranmış vəziyyətlə əlaqədar "Azərişıq" ASC gücləndirilmiş iş rejiminə keçib.

2-ci Zabrat qəsəbəsində Maştağa yoluna çıxan xəttin üzərinə ağac aşaraq 0,4 kV-luq ÖİN kabel xətlərini zədələmişdir. Ən çox ziyan Şimal RETSİ-nin ərazisində qeydə alınıb. Külək Quba, Qusar və Xaçmaz rayonlarında elektrik xətlərinə ciddi ziyan vurub. Bir neçə ərazidə ağaclar elektrik xətlərinin üzərinə aşıb. Quba şəhərində külək 5 mərtəbəli binanın damını elektrik xəttinin üzərinə aşırıb. Qəza baş verən ərazilərə əlavə mal-materal göndərilib və texnika cəlb olunub, xətlərdə bərpa işləri görülüb. Operativ tədbirlər nəticəsində abonentlər qısa zaman ərzində fasiləsiz elektrik enerjisi ilə təmin olunublar. Abonentlərdən baş verən qəza və açılmalarla bağlı dərhal "Azərişıq" ASC-nin 199 saylı çağrı mərkəzinə məlumat verməleri xahiş olunur.





## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 25 fevral 2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının xəzinə infrastrukturunun fəaliyyətini və əskinasçeşidləyici sistemlərin istismarını təmin etmək üçün tələbata uyğun qablaşdırma materiallarının satın alınması ilə əlaqədar açıq tender üzrə Tender komissiyasının 01 may 2020-ci il tarixli qərarına əsasən "Aabacus" MMC qalib elan edilmişdir.

Qalib şirkətllə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## "ERA" Açıq Tipli Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə

"ERA" Açıq Tipli Səhmdar Cəmiyyəti 19 iyun 2020-ci il tarixdə saat 11:00-da səhmdarlarını səhmdar cəmiyyətin növbədənkənar yığıncağına dəvət edir.

**Gündəlikdəki məsələlər**

1. "ERA" ATSC-nin İdarə Heyətinin yeni sədrinin seçilməsi.
2. Digər təşkilati məsələlər.

İclas səhmdar cəmiyyətin ofisində keçiriləcək.

Ünvan: Nərimanov rayonu, İslam Abışov küç., 20/94

*İdarə Heyəti*

## B İ L D İ R İ Ş

**Sumqayıt Şəhər İcra Hakimiyyəti "Abadlaşdırma xidmətləri haqqının ödənilməsi" - LOT-1, "Yaşayış binalarının əsaslı təmiri" - LOT 2 və "Qurğuların (tikintilərin) əsaslı təmiri" - LOT 3 xərc maddələri üzrə satınalmaların təkliflər sorğusu üsulu ilə həyata keçirilməsini elan edir**

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 2020-ci il 04 iyun saat 17:00-a kimi qəbul olunur. Təkliflər sorğusu zərflərinin açılışı 05 iyun 2020-ci il saat 15:00-da Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 nömrəli ünvanda Sumqayıt Şəhər İcra Hakimiyyətinin kiçik zalında keçiriləcəkdir. Əlaqələndirici şəxs: Rəhimdil Əhmədov, telefon: (018) 65 51448.

Təkliflər sorğusunda LOT 1 - "Abadlaşdırma xidmətləri haqqının ödənilməsi" xərc maddəsi üzrə iştirak haqqı 350 manat, LOT 2 - "Yaşayış binalarının əsaslı təmiri" xərc maddəsi üzrə iştirak haqqı 900 manat və LOT 3 - "Qurğuların (tikintilərin) əsaslı təmiri" xərc maddəsi üzrə iştirak haqqı 200 manatdır. Təkliflər sorğusunda iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y İqtisadi təsnifat 142330**
**VÖEN: 2900054881**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının Birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzova anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğluna qardaşı

**ÇİNGİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğluna qardaşı

**ÇİNGİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin birinci müavini İlyas Əliyevə qardaşı

**VAQİF ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev və komitənin kollektivi Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzova anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğluna qardaşı

**ÇİNGİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının kollektivi, professor-müəllim və tələbə heyəti akademiyanın rəisi Qulu Novruzova anası

**FATMA İBRAHİM QIZI NOVRUZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mərkəzi Neftçilər Xəstəxanasının kollektivi xəstəxananın Xəstəxana xidmətləri şöbəsinin müdiri Rəna Əliyevaya atası

**RAHİB MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7524
Sifariş 1269
Qiyməti 40 qəpik